QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 112 (5343) 24 **iyun** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**


# İlham Əliyev: “Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır”

*“Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır”*




Səh 2

10

Yeni Azərbaycan Partiyası şəhid ailələri və müharibə veteranlarına böyük diqqət və qayğı göstərir



12

Ramazan ayı ilin ən şəfaqətli və ən müqəddəs ayıdır



16

Formula 1-in idman direktoru: “Bakı Şəhər Halqası möhtəşəmdir”



# İlham Əliyev: "Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır"

*"Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır"*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Şirvan şəhərinə səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Şirvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu. Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov abidənin ətrafında görülmüş abadlıq işləri barədə Prezident İlham Əliyevə məlumat verdi.***



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Şirvan şəhərində yerləşən hərbi hissəsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verdi. Prezident İlham Əliyevə məlumat verildi ki, hərbi hissədəki yeni binaların inşasına 2012-ci ildə başlanıb və 2017-ci ilin mayında inşaat işləri başa çatdırılıb. Ümumi ərazisi 8,5 hektar olan hərbi hissədə qərargah, kazarma binaları, yeməkxana, tibb məntəqəsi və digər binalar inşa edilib. Binalar mərkəzləşdirilmiş mühəndis kommunikasiya, o cümlədən elektrik, su-kanalizasiya, havalandırma sistemləri, mebel və inventarlarla təchiz edilib. Ərazidə avtomobil parkı, atış şəhərciyi, qarovul məntəqəsi, anbarlar, müasir hamam-camaşırxana kompleksi də yaradılıb. Həmçinin hərbi hissədə 8 min kvadratmetr ərazidə sıra meydanı da var. Hərbi hissənin tədris bölməsində atəş, rabitə, taktiki hazırlıq, avtomobillərin idarə edilməsi, yol hərəkətinin təşkili və aşpazların hazırlanması sinifləri də hərbçilərin istifadəsinə verilib. Sinif otaqlarının hamısı zəruri inventar, o cümlədən əyani vəsaitlə təchiz olunub. Hərbi hissənin həyətində idman qurğuları da quraşdırılıb. Gələcəkdə burada dördmərtəbəli kazarmanın inşası planlaşdırılır. Prezident İlham Əliyev qərargah binasında yaradılan şəraitlə tanış oldu.



Binanın foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğılarını əks etdirən fotostend yaradılıb. Binadakı brifinq və xidməti otaqlar zəruri inventarla təchiz olunub. Burada hərbçilərin yüksək səviyyədə xidmət aparmaları üçün hərtərəfli şərait yaradılıb. Dövlətimizin başçısı əsgər kazarmasında da oldu. Müasir səviyyədə yaradılan kazarmada əsgərlərin qalmaları və istirahət etmələri üçün bütün şərait var. Kazarma isti döşəmə, həmçinin kondisionerlə təchiz olunub. Kazarmada əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün də geniş imkanlar mövcuddur. Burada ideoloji və məişət otaqları, əmlak anbarı və bərbərxana da əsgərlərin ixtiyarına verilib. Bir sözlə, buradakı şərait Azərbaycan dövlətinin ordu quruculuğu, o cümlədən Daxili Qoşunların hərbçilərinin xidmət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımların ardıcıl xarakter aldığını göstərir. Bu, həm də onu göstərir ki, Azərbaycan əsgəri bu gün ən müasir hərbi hissələrdə xidmət keçir. Bu isə şübhəsiz ki, Ali Baş Komandanın diqqəti və qayğısı sayəsində mümkün olub.

Sonra dövlətimizin başçısı Daxili Qoşunların hərbi silah-sursat və texnikası ilə tanış oldu. Bu gün Daxili Qoşunlar istər döyüş qabiliyyəti, istər maddi-texniki təchizat, istərsə də hərbi-texniki avadanlıqlara görə ən müasir hərbi birləşmələrdən biridir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri olan Daxili Qoşunlar cəmiyyətin və dövlətin mənafeyinin, vətəndaşların konstitusion hüquqlarının və azadlıqlarının cinayətkar qəsdlərdən qorunması, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsinin həyata keçirilməsi, ictimai asayişin mühafizəsi və qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri layiqincə yerinə yetirir. Sonra Prezident İlham Əliyev hərbi hissənin əsgər yeməkxanasında yaradılan şəraitlə tanış oldu. Burada əsgərlərin dolğun qidalanmaları üçün bütün zəruri şərait yaradılıb. Yeməkxanada eyni vaxtda 320 əsgər qidalana bilər. Yeməkxananın çörək, balıq, ət, tərəvəz, quru ərzaqlar və sinif otaqları da var.

**Ardı Səh. 3**

# İlham Əliyev: "Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır"

*"Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır"*

Əvvəli-Səh-2

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Sənayesi Nazirliyinin "Şərq" İstehsalat Birliyinin Şirvan şəhərindəki TƏQ-7V2 (RPQ) tipli tank əleyhinə əl qumbaraatanı üçün 4 növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, müdafiə sənayesi naziri Yavər Camalov müəssisə barədə dövlətimizin başçısına məlumat verdi. Zavodun yaradılmasında əsas məqsəd tank və özüyeriyən artilleriya qurğuları, o cümlədən dinamik qoruyucu sistemlər ilə təchiz olunmuş, həmçinin yüngül zirehli və zirehsiz texnika ilə mübarizə aparmaq, bundan başqa açıq ərazilərdə, səngərlərdə yerləşən düşmənin canlı qüvvəsini məhv etmək üçün TƏQ-7V2 (RPQ) tipli tank əleyhinə əl qumbaraatanı üçün 4 növ - qəlpəli, kumulyativ tandem, termobarik və inert qumbaralı atəş yığımlarının seriyalı istehsalının təşkil edilməsidir. Bu sursatlar 700 metrədək məsafədə düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək qabiliyyətinə malikdir.

Dövlətimizin başçısı zavodu işə saldı. Məlumat verildi ki, zavod 10 istehsal sahəsindən, o cümlədən avtomatlaşdırılmış mexaniki emal, termiki emal, kimyəvi cilalama, partlayıcı maddələrin preslənməsi, ekspres laboratoriya, yığma sahələrindən ibarətdir. Hərbi sursatın yaradılması və istehsalı üçün müəssisədə dünyanın bu sahədə qabaqcıl ölkələrindən olan Almaniyanın, ABŞ-ın, Fransanın, Hollandiyanın, İtaliyanın, Bolqarıstanın, Avstriyanın, Türkiyənin, Ukraynanın və Tayvanın müvafiq şirkətlərinin müasir standartlara cavab verən 45 texnoloji avadanlığı alınaraq quraşdırılıb. Bu avadanlıqlar arasında proqramla idarə olunan torna və frez dəzgahları, müxtəlif güclü hidravlik və mexaniki preslər, termoplast avtomatlar, termiki və kameralı elektrik sobaları, yoxlama və sınaqların aparılması üçün müxtəlif çeşidli laboratoriya avadanlığı var. Eyni zamanda, döyüş sursatlarının qəbul-təhvil sınaqlarında texniki nəzarət işlərini aparmaq üçün 280 adda xüsusi və universal ölçü alətlərinin və tərtibatların alınması təmin edilib. Zavodda 170 yeni iş yeri yaradılıb. Bütün işçilərə xarici mütəxəssislər tərəfindən müvafiq təlimlər keçirilib. Eyni zamanda, partlayıcı maddələrlə işləyənlər müvafiq kurs keçərək xüsusi sertifikat alıblar. Zavodun illik istehsal gücü birnövbəli iş rejimində 20 min atəş yığımı təşkil edir ki, bu da güc strukturlarının tələbatını ödəməyə imkan verəcək. Bu məmulatlara xarici dövlətlərdən sifarişlərin olduğunu nəzərə alaraq gələcəkdə ixrac imkanları nəzərdən keçiriləcək.







İyunun 23-də Şirvan şəhərində Müdafiə Sənayesi Nazirliyinin "Şərq" İstehsalat Birliyinin 40x46 millimetrlik MSGL 40 tipli qumbaraatanlar üçün müxtəlif növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışı mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev açılış mərasimində iştirak edib.

Müdafiə sənayesi naziri Yavər Camalov dövlətimizin başçısına məlumat verdi ki, zavodun yaradılmasında əsas məqsəd düşmənin canlı qüvvəsini və atəş vasitələrini məhv etmək, həmçinin yüngül zirehli və zirehsiz texnika ilə mübarizə aparmaq üçün 40x46 millimetrlik revolver tipli qumbaraatanlar üçün NATO standartlarına uyğun 4 növ - qəlpəli, kumulyativ-qəlpəli, işıqlandırıcı-paraşütlü və tüstülü qumbaralı atəş yığımlarının seriyalı istehsalının təşkil edilməsidir. Dövlətimizin başçısı zavodu işə saldı.

Bildirildi ki, bu məmulatlar 400 metrədək məsafədə düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək qabiliyyətinə malikdir. Müəssisədə mexaniki emal, ştamplama, kimyəvi cilalama, partlayıcı maddələrin preslənməsi, yığma, ümumilikdə, 7 istehsal sahəsi var. Məmulatın yaradılması və istehsalı üçün müasir standartlara cavab verən universal və xüsusi texnoloji avadanlıq - proqramla idarə olunan torna və frez dəzgahları, müxtəlif güclü hidravlik və mexaniki preslər, termoplast avtomatlar, termiki və kameralı elektrik sobaları İsveç, Almaniya, Türkiyə, Bolqarıstan, Serbiya, Sloveniya, Rusiya, İsrail və digər ölkələrin müvafiq qurumlarından alınıb.

Diqqətə çatdırılıb ki, zavodda məmulatların yaradılması və istehsalının mənimsənilməsi üçün tələb olunan alət və tərtibatlar texnoloji əməliyyatlara uyğun hazırlanaraq tətbiq edilib. Eyni zamanda, döyüş sursatlarının qəbul-təhvil sınaqlarında texniki nəzarət işlərini aparmaq üçün 300 adda xüsusi və universal ölçü aləti, həmçinin tərtibatlar alınıb. Layihə üzrə nəzərdə tutulan 40 işçiyə xarici mütəxəssislər tərəfindən müvafiq təlimlər keçirilib. Müəssisənin illik istehsal gücü birnövbəli iş rejimində 15 min atəş yığımı təşkil edir.

Bu cür müəssisələrin yaradılması ölkəmizdə müdafiə sənayesinin inkişafı istiqamətində görülən tədbirlərə böyük töhfədir. Belə zavodların işə düşməsi Azərbaycanın müdafiə potensialını gücləndirir, ölkəmizdə istehsal edilən hərbi təyinatlı məhsulların çeşidini artırır. Eyni zamanda, bu sahədə ixrac imkanlarımızı da genişləndirir, xaricdən asılılığımızı aradan qaldırır. Müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları və Müdafiə Nazirliyinin bir qrup hərbçisi ilə görüşdü.

Ardı Səh. 4

# İlham Əliyev: “Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır”

*“Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır”*

Əvvəli-Səh-3

Dövlətimizin başçısı görüşdə nitq söyləyib: -Hörmətli hərbçilər, əziz dostlar. Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm, Azərbaycan Silahlı Qüvvələrinə yeni uğurlar, qələbələr arzulayıram.

Bu gözəl bayram ərəfəsində biz Şirvan şəhərində müdafiə sənayesinin yeni zavodlarının açılışına toplaşmışıq. Bu, əlamətdar hadisədir. Bildiyiniz kimi, Müdafiə Sənayesi Nazirliyi mənim Sərəncamımla 2005-ci ilin dekabr ayında yaradılmışdır və bu illər ərzində böyük, uğurlu yol keçmişdir. O vaxt bu nazirliyin yaradılması imkan verdi ki, biz özümüzü hərbi texnika ilə, silah-sursatlarla böyük dərəcədə təmin edə bilək. Çünki o illərdə bizim böyük imkanlarımız yox idi, biz xarici istehsalçılardan asılı vəziyyətdə idik. Bəzən hansısa silahları ala bilirdik, bəzi hallarda ala bilmirdik. Ona görə, Müdafiə Sənayesi Nazirliyinin yaradılmasının əsas məqsədi idxaldan asılılığı azaltmaq, yeni iş yerləri yaratmaq və Azərbaycan Silahlı Qüvvələrini müasir texnika və silahlarla təmin etmək idi. Bugünkü nailiyyətlər və reallıq onu göstərir ki, biz məqsədimizə çata bilmişik.

Onu da qeyd etməliyəm ki, o vaxt bizim böyük vəsaitimiz də yox idi. Azərbaycan büdcəsinə əsas gəlirlərin əldə olunması 2006-cı ildən sonra başlamışdır, Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verilmişdir. 2005-ci ildə isə bizim maliyyə vəziyyətimiz bir qədər məhdud idi. Buna baxmayaraq bu məqsədlər, o cümlədən bu nazirliyin formalaşdırılması üçün dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılmışdır və bu gün nəticələr göz qabağındadır. Azərbaycanda 30-a yaxın hərbi zavod fəaliyyət göstərir və Silahlı Qüvvələrimizin tələbatı böyük dərəcədə ölkəmizdə istehsal edilən hərbi məhsullarla təmin olunur. Bu illər ərzində 1200-dən çox adda hərbi təyinatlı məhsulun istehsalı qaydaya salınıb. Demək olar ki, bu gün Azərbaycan bu istiqamət üzrə də dünya miqyasında öz layiqli yerini tuta bilibdir. Azərbaycanda güclü hərbi sənaye kompleksi yaradılıb və Şirvan şəhərində bir neçə hərbi müəssisə fəaliyyət göstərir. Təkcə Şirvan şəhərindəki müəssisələrdə 1200 nəfər işlə təmin edilibdir.









Hər bir ölkədə hərbi sənaye kompleksini yaratmaq üçün bir neçə vacib amil lazımdır. İlk növbədə vəsait, ondan sonra yeni texnologiyalar lazımdır. Yeni texnologiyaları əldə etmək üçün beynəlxalq əməkdaşlıq da mütləq yüksək səviyyədə olmalıdır. Kadr hazırlığı xüsusi yer tutur. Son illər ərzində bu istiqamətlər üzrə ardıcıl fəaliyyət aparılmışdır və bu gün Azərbaycan dünya miqyasında artıq hərbi sənaye kompleksinə malik olan aparıcı ölkələr sırasındadır. Bunu, eyni zamanda, təsdiqləyən ölkəmizdə iki dəfə keçirilmiş beynəlxalq hərbi sərgilərdir. Azərbaycan da, həmçinin bütün aparıcı beynəlxalq hərbi sərgilərdə öz məhsulu ilə iştirak edir. Bunun nəticəsində biz artıq nəinki özümüzü böyük dərəcədə təmin edirik, bizdə gözəl ixrac potensialı da yaranmışdır. 2005-ci ildə isə bu barədə ancaq fikirləşmək olardı. Bəlkə də heç təsəvvürümüzə gəlmirdi ki, nə vaxtsa Azərbaycan hərbi məhsullar da ixrac edəcək. Bu, artıq reallıqdır. İş yerləri açılır, idxaldan asılılıq azalır, yeni texnologiyalar gətirilir, sənaye potensialı güclənir və Azərbaycan Silahlı Qüvvələri daxili istehsalla təmin olunur.

Şirvan şəhəri Bakıdan sonra Cənubi Qafqaz regionunda hərbi sənaye kompleksi baxımından ikinci yerdədir. Bu, Şirvan şəhərinin inkişafına böyük dəstək verir. Son illər ərzində şəhərin inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır. Sosial-iqtisadi məsələlər, infrastruktur məsələləri öz həllini tapmışdır. Bir neçə il bundan əvvəl Şirvanda böyük “Cənub” Elektrik Stansiyası fəaliyyətə başlamışdır. Onun gücü təxminən 800 meqavata yaxındır. Şirvanda böyük xəstəxana, Olimpiya Kompleksi, məktəblər, mədəniyyət mərkəzi, digər sosial və sənaye obyektləri fəaliyyətə başlamışdır. Bu gün də bu istiqamətdə işlər davam etdirilir. Şirvanda qazlaşdırma 100 faiz səviyyəsindədir. İçməli su məsələləri də həllini tapır. Beləliklə, hərbi-sənaye kompleksinin də Şirvanda yaradılması şəhərə növbəti bir töhfədir.

Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu həm biz deyirik, həm Azərbaycan ictimaiyyəti bunu görür və bilir. Aparıcı reytinq agentlikləri də bunu təsdiqləyir. Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır. Ordu quruculuğu daim diqqət mərkəzindədir. Büdcəmizin ən böyük xərcləri hərbi xərclərdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Son illər ərzində ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülmüşdür. Həm yerli istehsal, həm də xaricdən gətirilən hərbi texnika hesabına biz bu gün təminat baxımından ən yüksək səviyyədəyik. Ən müasir silahlar, texnika, döyüş aparatları, təyyarələr, vertolyotlar, pilotsuz döyüş aparatları, artilleriya qurğuları, zirehli maşınlar, tanklar, toplar, hava hücumuna qarşı ən müasir qurğular, yeni, bütün bunlar bizim hərbi gücümüzü böyük dərəcədə artırmışdır. Növbəti illərdə də bu istiqamətdə ardıcıl iş aparılacaq. Bizim hərbi büdcəmiz kifayət qədər böyükdür. Bu məsələ bizim üçün prioritet məsələdir. Çünki daha demək istəyirəm ki, biz müharibə şəraitində yaşayırıq. Əgər müharibə olmasaydı, bəlkə də bu qədər vəsait bu məqsədlər üçün ayrılmazdı. Ancaq müharibə bitməyib, birinci mərhələ başa çatıb. Biz daim hazır olmalıyıq ki, işğal edilmiş torpaqları öz hərbi gücümüzlə azad edək.

**Ardı Səh. 5**

Əvvəli-Səh-4

# İlham Əliyev: “Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır”

*“Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır”*





Bununla bərabər, son illər ərzində hərbçilərin xidmət və məişət problemləri də öz həllini tapmışdır. Son illərdə bir çox hərbi bazalar, şəhərciklər istifadəyə verilmişdir, hərbçilərin xidmət şəraiti böyük dərəcədə yaxşılaşmışdır. Məişət şəraiti də yaxşılaşır. Hazırda qəbul edilmiş qərarlar əsasında 20 il və 20 ildən çox qüsursuz xidmət göstərmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Hesab edirəm ki, bu da dünya miqyasında çox nadir hallarda müşahidə olunur. Bu da Azərbaycan dövlətinin həm sosial siyasətini ifadə edir, eyni zamanda, Azərbaycan dövlətinin öz hərbçilərinə olan diqqətini göstərir.

Ordumuzun döyüş qabiliyyəti, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bunu təmas xəttindəki vəziyyət əyani şəkildə təsdiqləyir. Bu gün biz təmas xəttində tam üstünlüyə malikik. Bu üstünlüyü biz əldə etmişik və bunu artırırıq. Bizim döyüş qabiliyyətimizi əks etdirən bir çox hadisələr olub. Onların içərisində keçənilki aprel döyüşləri xüsusi qeyd edilməlidir. Bu döyüşlər nəticəsində Ermənistanın hərbi təcavüzünün qarşısını alarkən bizim hərbçilərimiz böyük qəhrəmanlıq göstərərək işğalçılardan üç rayonun bir hissəsini azad etmişlər. O yerlərdə, o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri nəticəsində bu gün biz köçkünləri öz doğma kəndinə yola salırıq. Cocuq Mərcanlı kəndi cəmi iki ay ərzində bərpa edilib. Onun bərpasının birinci mərhələsi başa çatıb. Əlavə vəsait ayrılıbdır ki, kəndin bərpasının ikinci mərhələsi də başa çatsın.

Aprel döyüşləri bizim şanlı qələbəmizdir, böyük uğurdur. Bir daha onu göstərir ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Cocuq Mərcanlıya bu kəndin sakinlərinin qayıtması onu göstərir ki, bizim bütün köçkünlər öz doğma şəhərlərinə, kəndlərinə qayıtmaq arzusu ilə yaşayırlar. Bu gün Cocuq Mərcanlı bizim dirçəliş, qələbə rəmzimizdir. Keçən ilin aprelində işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu da hər bir vətənpərvər Azərbaycan vətəndaşını fərəhləndirir. Yəni, bizim kifayət qədər gücümüz var və Ermənistanın bütün təxribatlarına layiqli cavab veririk. Bir həftə bundan əvvəl yenə də bizə qarşı silahlı təxribat törədildi. Azərbaycan Ordusu düşmənə layiqli cavab vermişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına gəldikdə, Azərbaycan dövlətinin mövqeyi ictimaiyyətə bəllidir. Biz bu mövqeyi dəfələrlə ifadə etmişik. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb və bütün toponimlər, bütün tarixi abidələr Azərbaycan tarixini əks etdirir.

Dağlıq Qarabağ, eyni zamanda, dünya ictimaiyyəti tərəfindən də Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Bütün aparıcı beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı qərar, qətnamələr qəbul etmişlər ki, Ermənistan silahlı qüvvələri dərhal, qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Lakin Ermənistan buna məhəl qoymur, əməl etmir. Əfsuslar olsun ki, Ermənistana qarşı heç bir ciddi tədbir görülmür. Ermənistana qarşı çoxdan beynəlxalq sanksiyalar tətbiq olunmalı idi. Çünki bu ölkə XXI əsrdə başqa ölkənin ərazisini işğal altında saxlayır, başqa xalqa qarşı soyqırımı törədib, bütün tarixi abidələri dağıdıb. Cocuq Mərcanlının dağılmış mənzərəsi bunun əyani sübutudur. Bizim işğal edilmiş bütün torpaqlarda da eyni vəziyyətdir. Beynəlxalq hüquqa gəldikdə isə beynəlxalq hüquq tarixi ədalət kimi tamamilə bizim mövqeyimizi gücləndirir. Dağlıq Qarabağda keçirilmiş son qondarma “referendum” da onların - separatçıların, işğalçıların növbəti iflası, növbəti biabırçılığı idi. Çünki bu “referendum”u heç bir beynəlxalq təşkilat, qonşu ölkələr, Avropa İttifaqı, Minsk qrupunun həmsədr ölkələri tanımayıb. Yəni, bu qondarma “referendum”u tanımamaqla bütün bu ölkələr və beynəlxalq təşkilatlar bir daha təsdiq edirlər ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. O qondarma, separatçı xunta rejimini dünya birliyi tanımır və tanımayacaq. Ona görə, tarixi ədalət, beynəlxalq hüquq, əlbəttə ki, bizim siyasi çəkimiz Ermənistanla müqayisəedilməz dərəcədə böyükdür. Bizim iqtisadi gücümüz Ermənistanınkından qat-qat artıqdır. Yəni, bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əlbəttə, Azərbaycan dövləti öz prinsipial mövqeyini daha da gücləndirməlidir və gücləndirir. Bir daha demək istəyirəm ki, biz müharibə şəraitində yaşayırıq. Bizim xalqımız heç vaxt bu vəziyyətlə barışmayacaq. Biz heç vaxt icazə verməyəcəyik ki, tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Son hadisələr və ölkəmizin güclənməsi bu məsələyə nail olmaq üçün bizim imkanlarımızı artırır.

Əlbəttə, öz məqsədimizə çatmaq üçün biz daha da güclü olmalıyıq. Əfsuslar olsun ki, indi bütün dünyada güc amili aparıcı rol oynayır. Əlbəttə ki, beynəlxalq hüquq da vacibdir. Çünki bu, münaqişənin hüquqi bazasını yaradır. Ancaq güc amili əsas rol oynayır. Biz görürük ki, dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq pozulur, tapdalanır, kim onu necə istəyirsə elə də yozur və güc amilindən istifadə edərək reallıqda vəziyyəti dəyişmək mümkün olur. Bu, bizim seçimimiz deyil, ancaq biz də real həyatda, real dünyada yaşayırıq. Məqsədimizə nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə işlər aparılır.

Azərbaycan bu il gözəl iqtisadi inkişaf templəri nümayiş etdirir, beş ayın yekunları çox müsbətdir. Qeyri-neft sektorumuz 2 faizdən çox, qeyri-neft sənayemiz 4 faizə yaxın, ixrac 40 faizdən çox artıbdır. Əminəm ki, gələn il göstəricilər daha da müsbət olacaq. Biz öz fəaliyyətimizi düşünülmüş siyasət əsasında qurmuşuq. Bizim daxili və xarici siyasətimiz, iqtisadi və sosial sahələrlə bağlı təşəbbüslərimiz həm beynəlxalq aləmdə, həm də xalq tərəfindən bəyənilir və dəstəklənir. Ölkəmizdə mövcud olan əmin-amanlığın, sabitliyin əsas səbəbi də məhz bundadır. Bu gün Silahlı Qüvvələr Günü ərəfəsində biz Silahlı Qüvvələrimizin inkişafı ilə bağlı önəmli hadisəni qeyd edirik. Bu gün açılan iki sənaye müəssisəsi bizim hərbi gücümüzü daha da artıracaq və Azərbaycan quruculuq, inkişaf yolu ilə uğurla gedəcəkdir. Bir daha sizi ürəkdən təbrik edirəm, bütün Silahlı Qüvvələrimizin şəxsi heyətinə yeni uğurlar, qələbələr arzulayıram.

x x x

Sonra müdafiə sənayesi naziri Yavər Camalov və müdafiə naziri Zakir Həsənov çıxış etdilər. Daha sonra Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi, hərbi qulluqçuların ordenlə təltif olunması barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamları oxundu. Prezident, Ali Baş Komandan ali hərbi rütbələrin vəsiqələrini və 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenini təltif olunan hərbi qulluqçulara təqdim etdi. Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

***Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir ki, ilahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda Allah və din qarşısında borclarını yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.***



Dövlət başçısı qeyd edir ki, xalqımız həmişə milli-mənəvi dəyərlərə sadiqliyi ilə seçilib. İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən biri olan Azərbaycanda milli-dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur. “Mübarək Ramazan günlərində xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirir, bütün dua və diləklərinizin Tanrı dərgahında qəbul olunmasını arzu edirəm”, - deyə Azərbaycan Prezidenti vurğulayır.

Prezident İlham Əliyev bildirir ki, bu il Ramazan ayı ölkəmizin həyatında bir sıra əlamətdar hadisələrlə eyni vaxta təsadüf edib. 2017-ci ilin Azərbaycanda “İslam Həmrəyliyi İli” elan edilməsi, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi, eyni zamanda, etnik-dini dözümlülük, dinlərarası həmrəylik və əməkdaşlıq məkanı olan ölkəmizin sivilizasiyalararası dialoq forumları kimi mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi hazırkı narahat dünyamızda Azərbaycan dövlətinin sülh və təhlükəsizlik işinə verdiyi dəyərli töhfələrdir. Biz bəşəriyyətin gələcəyini hədəf alan hər cür qlobal təhdid və təhlükələrə qarşı ardıcıl mübarizəmizi, dialoq və həmrəylik təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

Dövlət başçısı hər il Azərbaycanda böyük fərəh və könül xoşluğu ilə keçirilən oruclug mərasimlərinin cəmiyyətimizdə birlik və həmrəyliyin, dostluq və qardaşlıq münasibətlərinin təntənəsinə çevrildiyini vurğulayır. “Bu əziz bayram günlərində bir daha hər birinizi, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram”, - deyə Azərbaycan Prezidenti qeyd edir.

# Prezident İlham Əliyev Kosta Rikanın xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Kosta Rika Respublikasının xarici işlər naziri Manuel Qonzales Santsunu qəbul edib. AZƏRTAC xəbər verir ki, xarici işlər naziri Manuel Qonzales Santsu Kosta Rika Respublikasının Prezidenti Luis Gilyermo Solisin salamlarını dövlətimizin başçısına çatdırdı. Bakıda keçirilən Formula-1 yarışının əlamətdar idman tədbiri olduğunu vurğulayan Manuel Qonzales Santsu bu yarışın Azərbaycana çoxlu sayda turistlərin gəlməsi üçün yaxşı şərait yaratdığını bildirdi. Ölkəmizə axırıncı dəfə bir il bundan əvvəl səfər etdiyini vurğulayan qonaq ötən dövrdə Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu dedi.

Dövlətimizin başçısı Formula-1 yarışının önəmini vurğulayaraq bildirdi ki, müxtəlif ölkələrdən olan xeyli sayda turistlərin bu tədbirdə iştirakı onların Bakıda gedən inkişaf proseslərini öz gözləri ilə görmələrinə imkan verir və ölkəmizdə turizmin daha da inkişaf etdirilməsi işinə xidmət edir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, iqtisadi, ticarət, sərmayə qoyuluşu, birgə layihələrin həyata keçirilməsi, turizm və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Kosta Rika Respublikasının Prezidenti Luis Gilyermo Solisin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kosta Rika Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.



# Azərbaycan ilə Gürcüstan arasında əlaqələr bütün sahələrdə genişlənir

## *Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş nazirinin müavinini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Gürcüstanın Baş nazirinin müavini, təhsil və elm naziri Aleksandr Jejelavanı qəbul edib. AZƏRTAC xəbər verir ki, Aleksandr Jejelava ADA Universitetində olduqlarını və bu təhsil ocağının onlarda böyük təəssürat yaratdığını vurğulayaraq Bakı Ali Neft Məktəbinin də fəaliyyətinin maraq doğurduğunu dedi. Qonaq Azərbaycan ilə Gürcüstan arasında təhsil sahəsində əməkdaşlığın ikitərəfli əlaqələrimizin bütün digər sahələrdə mövcud olan səviyyəsinə çatdırılması üçün birgə səylərin həyata keçirilməsinin önəmini qeyd etdi.

Prezident İlham Əliyev ADA Universitetində, Bakı Ali Neft Məktəbində və o cümlədən ölkəmizdəki digər təhsil müəssisələrində yüksək səviyyədə təhsil sisteminin yaradılması ilə bağlı işlərin görüldüyünü qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında təhsil sahəsində ikitərəfli birgə layihələrin həyata keçirilməsinin zəruriliyini vurğuladı. Görüşdə ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın perspektivləri, o cümlədən tələbə-təhsil mübadiləsi və digər məsələlər ətrafında müzakirələr aparıldı.

# Yeni Azərbaycan Partiyası ölkəmizin qurtuluş simvoluna, tərəqqi rəmzinə çevrilib

*YAP Qazax rayon təşkilatının IX konfransı keçirilib*






***Dünən Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatının IX konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, Onun əziz xatirəsini ehtiramla yad ediblər. Konfransda Dövlət Himni səsləndirildikdən sonra hesabat məruzəsi ilə çıxış edən YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov ümumxalq partiyası olan Yeni Aəzrbaycan Partiyasının yaranmasından, keçdiyi şərəfli tarixi yoldan danışıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı olduğu kimi, eyni zamanda, Yeni Azərbaycan Partiyasının yaradıcısıdır: "Ümummilli Liderin qurucusu olduğu və Prezident İlham Əliyevin müdrik və qətiyyətli fəaliyyəti ilə güclənən Yeni Azərbaycan Partiyası ölkəmizin qurtuluş simvoluna, tərəqqi rəmzinə çevrilib. Bu gün YAP Azərbaycan xalqı tərəfindən dəstəklənən və böyük nüfuza malik olan qüdrətli siyasi qüvvədir. Yeni Azərbaycan Partiyası öz ətrafında xalqımızın qabaqcıl ziyalılarını və intellektual potensialını birləşdirmək baxımından cəmiyyətin alternativsiz partiyasıdır".***

Konfransda YAP Qazax rayon təşkilatı nəzarət-təftiş qrupunun sədri Ramil Qurbanovun hesabat məruzəsi dinlənilib. Məruzələr ətrafında YAP Qazax rayon təşlilatının gənclər birliyinin sədri Vüsal İsmayılov, YAP Qazax rayon təşkilatı qadınlar şurasının sədri Asya Alhüseynova, YAP Qazax rayon təşkilatının şura üzvü Valeh Vəliyev, partiya fəalı Məmməd Yusifov, Milli Məclisin deputatı, YAP Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyev, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəbli, Qazax rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək, Yeni Azərbaycan Partiyasının yaranması zərurətindən ətraflı danışıb, rayon təşkilatının hesabat dövrü ərzində qənaətbəxş fəaliyyət göstərdiyini vurğulayıblar. O dövrdə baş verən hadisələrlə bağlı fikirlərini bildiriblər. Qeyd ediblər ki, xalqımız 1992-ci ilin noyabrında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılmasını böyük sevinclə qarşılayıb. Hazırda, digər yerlərdə olduğu kimi, Qazax rayonunda da quruculuq işləri böyük vüsət alıb. Çıxış edənlər YAP Qazax rayon təşkilatının hesabat dövrü ərzində qənaətbəxş fəaliyyət göstərdiyini vurğulayıblar.

Cıxışlardan sonra təşkilati məsələlərə baxılıb. Həmid Pənahov yenidən YAP Qazax rayon təşkilatının sədri seçilib. Həmçinin, təşkilatın 45 nəfərdən ibarət şurası və 5 nəfərdən ibarət nəzarət-təftiş qrupu seçilib. Sonda Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatının qətnaməsi qəbul olunub.

**RƏFİQƏ**



# Yeni Azərbaycan Partiyası böyük tarixi yol keçib

*YAP Bərdə rayon təşkilatının X konfransı keçirilib*



Dünən Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının X konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə partiyanın yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Rayon mədəniyyət mərkəzində keçirilən konfransda əvvəlcə Dövlət Himni səsləndirilib, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, YAP-ın banisi, Ümummilli Lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Konfransda Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya hesabat məruzəsi ilə çıxış edərək təşkilatın ötən konfransdan keçən dövr ərzindəki fəaliyyətini geniş təhlil edib: "Rayon təşkilatı ötən konfransdan keçən müddət ərzində daha da təşkilatlanıb, ictimaiyyət arasında kütləviliyi artıb. Bu dövrdə 3315 nəfər partiya sıralarına qəbul edilib. Hazırda 150 ərazi ilk partiya təşkilatı öz sıralarında 10 min 912 nəfər siyasi həmfikiri birləşdirir. Onlardan 4447 nəfəri qadınlar, 3257 nəfəri isə gənclərdir".

Fəqət Şadlinskaya çıxışında onu da bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkənin bütün bölgələrində olduğu kimi, Bərdə rayonunda da sosial-iqtisadi inkişaf uğurla davam etdirilir: "Son illərdə rayonda Heydər Əliyev adına park-bulvar, 23 məktəb, təhsil şöbəsi, uşaq incəsənət məktəbi, Kənd Təsərrüfatı İdarəsi üçün binalar, Regional Baytarlıq Laboratoriyası, "ASAN Xidmət" Mərkəzi, Qəhrəmanlar, Nüşabə parkları, Mərkəzi Meydan, qaçqın və məcburi köçkünlər üçün çoxmərtəbəli binalardan ibarət 866 və 588 ailəlik yaşayış massivləri, 195 ailəlik qəsəbə inşa edilib. Çörək kombinatı, Mehdili kəndində ət və süd emalı müəssisəsi və soyuducu anbar, Alpout-Nazırlı, Otuzikilər-Vəliuşağı kənd yolları tikilib istifadəyə verilib, şəhər və 104 kənd tam qazlaşdırılıb. Son illərdə altı dəfə Bərdəyə səfər edən Prezident İlham Əliyevin rayonda gedən işlərdən razılığını bildirməsi bərdəlilərdə böyük ruh yüksəkliyi yaradıb, onlara quruculuq işlərini daha da genişləndirməyə stimul verib".

Konfransda təşkilatın nəzarət-təftiş qrupunun hesabatı dinlənildikdən sonra cıxış edən YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, ilk olaraq konfrans iştirakçılarını qarşıdan gələn Ramazan bayramı münasibətilə təbrik edib, partiyanın keçdiyi inkişaf yolundan, ölkənin ictimai-siyasi həyatındakı rolundan danışıb. Bildirib ki, böyük tarixi yol keçən, Ümummilli Lider Heydər Əliyevin banisi olduğu YAP 700 minə yaxın insanı öz ətrafında birləşdirir. Ümumxalq partiyası olan YAP-ın sıralarına hər il 25 minə yaxın yeni üzv qəbul olur ki, onların da böyük hissəsi gənclərdir. YAP İcra katibinin müavini Mübariz Qurbanlı partiya üzvləri qarşısında duran vəzifələrdən danışıb və tövsiyələrini bildirib.

Konfransda Bərdə rayon icra hakimiyyətinin başçısı Vidadi İsayev çıxış edərək diqqəti Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə əldə olunan uğurlara, o cümlədən Bərdədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinə yönəldib. Bildirib ki, müstəqil Azərbaycan dövlətinə, onun qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin ideyalarına daim sədaqətli olan partiyanın rayon təşkilatının üzvləri bu tədbirlərin önündə gedir, fəallıqları ilə seçilirlər. Çıxışlardan sonra konfransın qətnaməsi qəbul olunub. Konfransda təşkilati məsələlərə də baxılıb. Fəqət Şadlinskaya yenidən YAP Bərdə rayon təşkilatının sədri, həmçinin təşkilatın 61 nəfərdən ibarət şurasının, 19 nəfərdən ibarət idarə heyətinin üzvləri və 7 nəfərdən ibarət nəzarət-təftiş qrupunun tərkibi seçilib. YAP Mərkəzi Aparatının məsul işçisi Araz Xudadanov konfransda iştirak edib.

**R.HÜSEYNOVA**

# General-leytenant Hüseyn Rəsulbəyov -100

## Gözəl insan, görkəmli hərbçi və ictimai xadim

***Bu il iyun ayının 26-da Azərbaycan xalqının şanlı oğlu, görkəmli ictimai və siyasi xadim, artilleriya general-leytenantı Hüseyn Cümşüd oğlu Rəsulbəyovun 100 illik yubileyi ölkəmizdə, eləcə də, onun hüdudlarından kənarda böyük təntənə ilə qeyd ediləcək. H.Rəsulbəyov mənalı və əlamətdar hadisələrlə dolu bir həyat yaşayıb. O, zəngin biliyə, təşkilatçılıq qabiliyyətinə, insanların ürəyinə yol tapmaq bacarığına malik insanlar koqortasına aid bir şəxs, mehribanlıq, xeyirxahlıq, Vətənə, xalqa xidmətə, vəzifə borcuna sadiqlik nümunəsi idi. General-leytenant H.Rəsulbəyov hərtərəfli insan idi. O, möhkəm intizamı, xidməti işləri şəxsi maraqlardan üstün tutmaq, xidmətdə və həyatda yaranan böyük və kiçik problemlərdən yan keçməmək bacarığı ilə fərqlənirdi.***

H.Rəsulbəyovun Azərbaycanda hərb quruculuğun inkişafında, xüsusilə də, rabitə və elektronika sahəsində xidmətləri çox böyükdür. O, 1917-ci il iyunun 26-da Dağıstanın Dərbənd şəhərində anadan olmuş, orada təhsil almış və xalqlarımız arasında dostluğun və qardaşlığın möhkəmləndirilməsi üçün çox işlər görmüşdür. 1941-ci ilin mayında, Moskvada Qızıl Ordu Artilleriya Akademiyasını bitirdikdən sonra H.Rəsulbəyov Odessaya 15-ci HHM briqadasının cihazlar üzrə mühəndis vəzifəsində xidmətə göndərilmişdir.

H.Rəsulbəyovun əsas xidmət və döyüş yolu müharibə cəbhələrində, Hitler faşizmi ilə mübarizədən başlamışdır. O, igidliyi, taktiki-əməliyyat məsələlərini həll etmək bacarığı, yüksək intizamı ilə fərqlənirdi, geniş biliyə, praktiki təcrübəyə malik bir şəxsiyyət, tabeliyində olanlara qarşı prinsipial, xeyirxah və qayğıkeş bir komandir idi. H.Rəsulbəyov hərbi karyera pillələri ilə müvəffəqiyyətlə irəliləyir, birbirinin ardınca yüksək vəzifələr tuturdu. H.Rəsulbəyov Bakı Hava Hücumundan Müdafiə Dairəsinin raket qoşunlarının komandanı olarkən, keçmiş Sovet İttifaqının cənub hava sərhədlərinin müdafiəsinin möhkəmləndirilməsində, gənc hərbi kadrların hazırlanması sahəsində özünü bacarıqlı təşkilatçı kimi göstərmişdir.

1975-ci ildə ehtiyatda olan artilleriya general-leytenantı H.Rəsulbəyov Azərbaycan SSR rabitə naziri vəzifəsinə təyin olunur. Tezliklə H.Rəsulbəyovun istedadı, biliyi və əla təşkilatçılıq qabiliyyəti Azərbaycanda rabitə sisteminin inkişafında özünü göstərir. Respublikanın rəhbəri, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin və respublika hökumətinin geniş qərarı qəbul olunur və həmin qərarla Bakıda telefon şəbəkəsinin sürətli inkişafı üzrə tədbirlər planı müəyyən edilir. Nazir H.Rəsulbəyov bu möhtəşəm planları reallaşdırmaq üçün səmərəli və geniş quruculuq strategiyası işləyib-hazırlayır. Nazirlikdə H.Rəsulbəyovun şəxsən özü tərəfindən kadrların hazırlanması, seçilməsi və yerləşdirilməsi üzrə böyük işlər görülür. Onun, bilavasitə rəhbərliyi altında o dövr üçün ən yeni texniki təchizata malik bir neçə ATS-in inşasına başlanır, mütəxəssislərin hazırlanması və yenidən hazırlanması üzrə geniş işlər aparılır. Rabitə naziri nəzərdə tutulan bütün işlərin yerinə yetirilməsinə şəxsən özü nəzarət edir, tez-tez yerlərdə mütəxəssislər və fəhlələrlə görüşür, operativ yığıncaqlar keçirirdi. Hüseyn müəllim insanları çox yaxşı tanıyırdı, onların qəlbinə yol tapa bilirdi, onları öz fəallığı ilə səfərbər edirdi. Ondakı böyük mühəndislik istedadı, dövlətçilik təfəkkürü ilə düşünmək və işlərin durumunu düzgün qiymətləndirmək, sahənin inkişafını proqnozlaşdırmaq bacarığı insanların ehtiyaclarına daimi qayğı ilə üzvi şəkildə uzlaşırdı.

Ötən yüzilliyin 80-ci illərində respublikada bir çox rabitə obyektləri geniş surətdə inşa edilir və yenidən qurulurdu. Azərbaycan xalqının böyük oğlu, Ümummilli Lider Heydər Əliyev respublikanı geniş və davamlı inkişaf yoluna çıxarırdı. Toplanmış böyük praktiki təcrübəyə söykənərək, H.Rəsulbəyov də bu inkişafın davamı olaraq rabitəçilərin səylərini Bakıda, respublikanın regionlarında telefon şəbəkəsinin, teleqraf, poçt rabitəsinin, televiziyanın sürətli tikintisinə və inkişafına yönəldirdi. Sahənin rəhbəri olarkən, H.Rəsulbəyov rabitənin bütün strukturlarında dəqiq iş qura bilmişdi. Bir qayda olaraq, onun tərəfindən qərarlar kollegial şəkildə qəbul edilir, çox vaxt isə hər hansı vacib qərarı qəbul etməyə hazırlaşarkən, o, necə deyərlər, əmək kollektivlərinə gedir, fəhlələri, mühəndisləri dinləyir, elə obyektdəcə nazirliyin kollegiya iclaslarını keçirir və yaranan problemi operativ şəkildə həll edirdi. Hüseyn Cümşüd oğlu insanlara qarşı çox diqqətli idi, onlara təkcə işdə deyil, həm də rabitəçilərin şəxsi məsələlərinin həllində də daim kömək edirdi. Nazirin onları diqqətlə dinləyəcəyini, qaldırılan problemlərə diqqət yetirəcəyini bildiklərindən, işçilər onun yanına həvəslə gedirdi. H.Rəsulbəyovun rəhbərliyi dönəmində nazirliyin fəal dəstəyi ilə əməkdaşların uşaqları üçün Mərdəkandakı "Rabitəçi" düşərgəsi tam təmir edilmiş, ərazisi abadlaşdırılmış və ən nümunəvi istirahət şəraiti yaradılmışdı.



H.Rəsulbəyov kabinet məmuru deyildi, "quru" inzibatçılıqla məşğul olmurdu. Müxtəlif məsələlərin müzakirəsi zamanı fikirləri diqqətlə dinləyir, obyektiv, diqqətli və nəzakətli idi. Yüksək vəzifəsi, tələbkarlığı, ciddiliyi onun insanlığına, mehribanlığına, təvazökarlığına qətiyyən təsir göstərmirdi; o, hər zaman səmimi, qayğıkeş və xeyirxah bir insan olaraq tanınırdı və indi də yaddaşlarda, məhz bu cür qalmaqdadır.

Rabitə müəssisələrinin əmək kollektivlərinin orta və yaşlı nəsli H.Rəsulbəyovun onlarla "qəfil" görüşlərini indi də yaxşı xatırlayırlar. O, gözlənilmədən gələr, fəhlə və qulluqçularla görüşər, demək olar ki, hər şeylə maraqlanardı. Adətən, əməkçilərlə görüş zamanı qeydlər aparılmırdı, amma H.Rəsulbəyov hər şeyi yadda saxlayır və öz fəhlə və qulluqçularla söhbətin bütün təfərrüatlarını xatırlayırdı. İnsanlarla görüşlərdəki söhbətləri ümumiləşdirərkən, o, konkret problemin həllini təklif edir, verilən tapşırıqların tarixlərini, onların icra müddətlərini bloknotunda qeyd edirdi. H.Rəsulbəyov həmişə başladığı işə yüksək maraq göstərirdi və onu sona qədər diqqətdə saxlamağı sevirdi. Onun bu sahəyə rəhbərlik etdiyi illərdə qazanılan uğurların, əsas göstəricilərin təhlili əldə edilən səbitlikdən, rabitə obyektlərinin ən yeni texnoloji avadanlıqlarla təchiz olunmasına yönəldilən addımlardan xəbər verir. Onun şəxsi iştirakı ilə Baş Poçtamt, Rabitə Evi, rabitə qovşaqları və teleqüllənin layihələri işlənib-hazırlanmış və inşa edilmişdir. Bu, təkcə əhaliyə rabitə xidmətlərinin göstərilməsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını təmin etməmiş, həm də paytaxtın memarlıq ansamblını daha maraqlı və müasir etmişdir.

O, hər işi vicdanla, keyfiyyətlə və ən yüksək səviyyədə yerinə yetirirdi. Bununla yanaşı, H.Rəsulbəyov cəmiyyətin əxlaqi dəyərlərini pozanlara qarşı xüsusi dözülməzlik göstərirdi. O, heç vaxt ləyaqətsiz, natəmiz və ya lazımi ixtisası olmayan şəxsləri işə götürməzdi. Onun üçün kadr məsələsində heç bir tanışlıq mövcud deyildi. Bu insanın yanında yalnız hər cür yaltaqlar, öz xeyrini güdənlər və xidmətdə yüksəlmək xəyalı quran insanlar özünü daim narahat hiss edirdi və onların sıraları bu illər ərzində xeyli seyrəlmişdi. Hüseyn müəllim, əksinə, vicdanla işləyən şəxsləri hər zaman görür və yüksək qiymətləndirirdi. O, sahənin hazırlıqlı kadrlarla möhkəmləndirilməsinə böyük diqqət yetirir, onların idarələrdə, nazirliyin şöbələrində yerləşdirilməsinə şəxsən özü nəzarət edirdi.

Rabitənin inkişafı üzrə böyük işlərin tam maliyyələşdirilməsinin qayğısına qalaraq, H.Rəsulbəyov bu illər ərzində Azərbaycan layihələrinin ittifaq təşkilatlarında müzakirəsi və qəbulunda fəal iştirak etmişdir. Keçmiş SSRİ-nin Maliyyə Nazirliyində büdcənin tərtibi və qəbulu zamanı onun çıxışları təsirli və arqumentləşdirilmiş olurdu. Çıxışların əsaslandırılmış olması, işə dövləti nöqteyi-nəzərdən yanaşma, ifadə dəqiqliyi respublikanın rəhbərliyi tərəfindən daim dəstəklənirdi və buna görə də həmişə rabitə sahəsinin maliyyələşdirilməsi məsələləri öz müsbət həllini tapırdı.

H.Rəsulbəyov nazir vəzifəsini tutduqdan dərhal sonra Bakıda çoxmərtəbəli qülləyə malik güclü radio-televiziya stansiyasının tikintisi məsələsinin həllinə başladı. Çox vaxt keçmədən, hamı yeni nazir H.Rəsulbəyovun şəxsində novator, yüksək erudisiyalı, sahənin hər bir problemindən baş çıxaran insan gördü. Onu, haqlı olaraq, "texniki tərəqqinin döyüşçüsü" adlandırırdılar. Bu gün çoxmərtəbəli televiziya qülləsinin uğurlu fəaliyyət göstərməsi, respublika ərazisinin xeyli hissəsinin televiziya yayımı ilə əhatə olunması, şübhəsiz ki, respublikanın rabitə sahəsinin bir çox işçisi kimi, H.Rəsulbəyovun da danılmaz xidmətidir.

H.Rəsulbəyovla ünsiyyətdə olan veteran rabitəçilər onun haqqında xoş sözlər söyləyir. Onlar H.Rəsulbəyova müraciətlərinin cavabsız qalması hallarını xatırlamır. H.Rəsulbəyov çoxlarına kömək əlini uzatmış, bəzən hərbçi kimi hərəkət etmiş, müxtəlif instansiyalara müraciət etmiş və qaldırılan məsələnin həllinə nail olmuşdur.

H.Rəsulbəyov deyirdi ki, bütün insanlar, xüsusilə də, vəzifəli şəxslər sosial aktivliyin inkişafına səy göstərməlidir. Ümumi işə can yandırmaq, kənarda durmamaq lazımdır. O, bir sahə rəhbəri kimi dəqiq anlayırdı ki, əmək kollektivləri, əmək veteranları, sadə zəhmətkeşlərlə sıx ünsiyyət olmadan kollektivə bacarıqlı, düzgün rəhbərlik etmək çətindir. O, nazirliyin kollegiyasını tez-tez çağırır, əmək kollektivləri ilə görüşlərdən təəssüratlarını bölüşür, fəhlə və qulluqçuların istəklərini oxuyurdu.

General H.Rəsulbəyovun xalq işinə sadiqliyi, yüksək təşkilatçılıq qabiliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş və onun əməyi bir çox yüksək mükafatlarla qeyd edilmişdir. General Rəsulbəyov Lenin, II dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz, Qırmızı Əmək Bayrağı ordenləri və 14 medalla, o cümlədən "Hərbi xidmətlərinə görə", "Odessanın müdafiəsinə görə", "Qafqazın müdafiəsinə görə", "Nöqsansız xidmətə görə" və sair medallarla təltif edilmişdir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 28 iyul 1966-cı il tarixli Fərmanı ilə ona "Azərbaycan SSR-in əməkdar mühəndisi" fəxri adı verilmişdir. O, 1984-cü ildə vəfat etmişdir. Azərbaycan xalqının görkəmli oğlu, general-leytenant Hüseyn Cümşüd oğlu Rəsulbəyovun Azərbaycan və Dağıstanın bütün sahələrində, həmçinin onların hüdudlarından uzaqlarda çoxlu dostu və yoldaşı var idi.

İnsanların yaddaşında yalnız təmiz ada layiq insan qala bilər. Xoş izlər silinmir, ömrümüzə əbədi və təsirli sətirlərlə yazılır. Bütün həyatı boyu xeyirxahlıq nümunəsi olmuş H.Rəsulbəyov özündən sonra heç vaxt silinməyəcək, yaddan çıxmayacaq ibrətamiz izlər qoyub getmişdir. O, dəfələrlə kimləri isə qorumalı, kimləri isə müdafiə etməli olmuş, ehtiyacı olana kömək əlini hər zaman vaxtında uzatmışdır. Onun bütün həyatı, məhz necə deyərlər, Böyük Həyatın təsdiqi idi, insanlara, doğma Vətənə təmənnasız xidmət nümunəsi idi. H.Rəsulbəyov Vətənini bütün ömrü boyu bir övlad məhəbbəti ilə sevmiş və ömrünün ən yaxşı illərini onun inkişafına, daha da çiçəklənməsinə sərf etmişdir. Bu sevgi onun taleyində əsas - parlaq, valehedici və ülvi sevgi olmuşdur. İbrətamiz dürüstlük, vətənpərvərlik, igidlik görkəmli sərkərdə, nümunəvi sahə rəhbəri, doğma Vətənin sadiq və fədakar oğlu general-leytenant H.Rəsulbəyovun həyatı boyu ən böyük və dəyişilməz kredosu olmuşdur.

**Tofiq YUSİFOV,**
***yazıçı-publisist***

# Müstəqil Azərbaycanın güclü və müasir ordusu var

**26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranması Günüdür. Həmin tarixdən 99 il ötür. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Şərqin ilk demokratik respublikasında ordu quruculuğu istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə təkan verdi. 1918-ci ildə yenicə müstəqilliyini elan etmiş Azərbaycan ilk Milli Ordusunu yaratdı və ilk milli ordu hissələrini formalaşdırmağa başladı. Təəssüflər olsun ki, 1920-ci ilin aprelində Azərbaycan sovetlər tərəfindən işğal edildikdən sonra milli ordu ləğv edildi.**



Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz, bütün sahələrdə olduğu kimi, hərbi sahədə də ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas məsələ Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı problemlərlə müşayiət edilir, nizami orduya ehtiyac var idi. Azərbaycan xalqının tələbi ilə Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ölkədə ordu quruculuğu prosesinin başlanğıcını qoydu. Məhz həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, ordudakı siyasiləşməyə son qoyuldu. Ulu Öndər Heydər Əliyev hakimiyyəti dövründə həm Prezident, həm də Ali Baş Komandan olaraq, diqqəti ordunun qüdrətli olmasına yönəltdi.

1993-cü il noyabrın 1-də Müdafiə Şurası yaradıldı. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi olaraq, 1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra, ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Orduya çağırış və fərarilik halları ilə bağlı bütün problemlər həll edildi. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi-vətənpərvərlik işi gücləndirildi. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Məhz Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.



## AZƏRBAYCANDA MÜASİR VƏ ÇOX GÜCLÜ HƏRBİ-SƏNAYE KOMPLEKSİ YARADILIB

Azərbaycan Prezidentinin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi-Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Bu gün müasir Azərbaycan Ordusu ən yüksək standartlara cavab verir. Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu siyasətinə sadiq qalaraq, Milli Ordunu regionun ən güclü ordusu səviyyəsinə yüksəldib.

Müasir dövrümüzdə ən yeni silah və sursatla, peşəkar zabit kadrları ilə tam təmin olunmuş Milli Ordumuz işğal olunmuş torpaqlarımızı azad etməyə hazır və qadirdir. Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə, Hərbi-Dəniz Donanması və Quru Qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq gücündədir. MDB çərçivəsində Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Azərbaycan Prezidenti İlham Əliyevin "Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan da geri qalmır"- fikrini ifadə etməsi, məhz bu gerçəkliklərdən qaynaqlanır.

Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənib. Bu istiqamətdə son illər ərzində böyük işlər görülüb. Azərbaycan iqtisadiyyatının yüksəlişi, bütün sahələrdə olduğu kimi, ölkənin hərbi qüdrətinin də artmasında müsbət təsirini göstərib. Son bir neçə il ərzində Azərbaycanda müasir və çox güclü Hərbi-Sənaye Kompleksi yaradılıb. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib və bunun nəticəsi olaraq, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik ordumuz var. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, "Ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik".

Bu gün torpaqlarının 20 faizi işğalda olan Azərbaycan üçün ordu qurculuğu, ordunun daha da möhkəmlənməsi zəruridir. Bəli, belə bir şəraitdə ordunun güclənməsi üçün bütün lazımi tədbirlər görülür, peşəkarlıq artır. Azərbaycan Prezidentinin hərbi qulluqçuların aylıq vəzifə maaşlarının artırılması, hərbi qulluqçuların təltif edilməsi, hərbi qulluqçulara ali hərbi rütbələrin verilməsi barədə imzaladığı sərəncamlar silahlı qüvvələrin şəxsi heyətini daha qətiyyətli, Vətənin müdafiəsi işində daha əzmkar və ayıq-sayıq olmağa ruhlandırır. Hərbçilərin sosial məsələlərinin və məişət problemlərinin həlli həmişə diqqət mərkəzində saxlanılır.

## AZƏRBAYCAN ORDUSU QARŞIDA DURAN BÜTÜN VƏZİFƏLƏRİ HƏLL ETMƏYƏ QADİR OLAN ORDUDUR

Millətimizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın silahlı qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.

Qeyd edək ki, ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması Cənab Prezidentin öz vədinə sadiq olduğunu bir daha təsdiq edir. Bəli, bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və heç şübhəsiz ki, belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Qarabağda dalğalandırmağa qadirdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Dövlətimizin diqqət və qayğısını, xalqın dayağını daim öz üzərində hiss edən hərbçilərimizin isə döyüş ruhu birə-beş artır. Vətən övladları sərhədlərimizin keşiyində ayıq-sayıq dayanırlar. Günün müxtəlif vaxtlarında Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən, mütəmadi olaraq, atəşkəs rejimi pozulsa da, əsgər və zabitlərimizin ayıq-sayıqlığı nəticəsində düşmən susdurulur, kəşfiyyat-təxribat qruplarının qarşısı vaxtında alınır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Yeni Azərbaycan Partiyası şəhid ailələri və müharibə veteranlarına böyük diqqət və qayğı göstərir

*YAP-ın Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup əsgər və zabitinin ailə üzvləri ilə birlikdə yay istirahətini təşkil etməsi bu diqqət və qayğının bariz nümunəsidir*





Cənubi Qafqazın lider dövləti olan müstəqil Azərbaycan Respublikasının xarici siyasət kursunun mühüm prioritetlərindən biri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə - işğal edilmiş ərazilərimizin azad edilməsinə nail olmaqdır. Bu istiqamətdə uğurlu diplomatiya həyata keçirən Azərbaycan həm də ordu quruculuğuna xüsusi önəm verir. Şübhəsiz ki, Azərbaycan öz ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək iqtidarındadır və işğal altında olan ərazilər istənilən yolla azad ediləcək. Bu, Azərbaycanın beynəlxalq hüquq normaları ilə təsbit edilmiş ali siyasi hüququdur. Ordunun döyüş və müdafiə qabiliyyətinin artırılması Azərbaycanın öz torpaqlarını nəyin bahasına olursa olsun, işğaldan azad edəcəyinə dair əminlik yaradır.

### Azərbaycan Ordusu işğal edilmiş ərazilərimizi azad etməyə qadirdir!

Ümumiyyətlə, milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsi olan hərbi təhlükəsizliyin möhkəmləndirilməsi, ilk növbədə, milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlığı səviyyəsinin yüksəldilməsindən asılıdır. Müharibə şəraitində yaşayan ölkə kimi Azərbaycanın güclü orduya, təkmilləşmiş hərbi sistemə, inkişaf etmiş müdafiə sənayesinə malik olması ölkənin və əhalinin təhlükəsizliyi baxımından böyük önəm kəsb edir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində sistemli şəkildə aparılan ordu quruculuğu sahəsində məqsədyönlü işlər görülüb. Hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyətinin daha da yüksəldilməsi, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilir. Bunlarla yanaşı, aviasiyada hava hücumundan müdafiə üzrə yeni texnikaların alınması, mövcud texnikanın təmiri və modernləşdirilməsi nəticəsində hissə və bölmələrin müxtəlif hava şəraitində döyüş fəaliyyəti imkanları artırılıb. Görülən bütün bu işlər nəticəsində Azərbaycan Ordusu yüksək döyüş hazırlığına nail olub və qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadirdir. Bütövlükdə, həyata keçirilən ordu quruculuğu siyasəti sayəsində bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib.

Digər tərəfdən, dövlət başçısının orduya qayğısı, hərbi hissələrə davamlı olaraq baş çəkməsi, cəbhə bölgəsində xidmət göstərən hərbçilərlə görüşməsi onlarda ruh yüksəkliyini daha da artırır. Müharibə şəraitində yaşayan bir ölkə üçün ən vacib məqamlardan biri də orduda və ümumiyyətlə, vətəndaşlar arasında sağlam mənəvi-psixoloji durum, ruh yüksəkliyi, özünə inam, vətənpərvərlik hisslərinin hakim olmasıdır. Bu gün Azərbaycan cəmiyyətində qeyd olunan əhval-ruhiyyə mövcuddur. Bütün bunların nəticəsidir ki, xalqımız regionda aparıcı güc strukturuna çevrilmiş Azərbaycan Silahlı Qüvvələrinə vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı xeyli möhkəmlənmiş, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir bir qüvvə kimi böyük inam bəsləyir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “Bizim ordumuz güclü ordular sırasındadır. Son illər ərzində ordumuzun maddi-texniki təminatı böyük dərəcədə inkişaf edib. Bu gün təminat-təchizat baxımından yüksək səviyyəyə malik olan Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Biz son illər ərzində bir çox ölkələrdən ən müasir texnika, silah-sursat almışıq ki, bu texnika və silahlar bu gün bizim ordu potensialımızı gücləndirir”.

Qeyd etdiyimiz kimi, ordunun döyüş və müdafiə qabiliyyətinin artırılması Azərbaycanın öz torpaqlarını tezliklə işğaldan azad edəcəyinə dair optimist qənaət yaradır. Ötən ilin aprel döyüşləri zamanı Azərbaycan Ordusu düşmənin təxribatlarına layiqli cavab verməklə istənilən döyüş tapşırığını yerinə yetirmək və işğal edilmiş torpaqlarımızı azad etmək iqtidarında olduğunu bir daha dünyaya nümayiş etdirdi. Aprel döyüşləri ilə yanaşı, son hadisələr də işğalçı Ermənistana ciddi dərs oldu. Ermənistan isə növbəti dəfə anladı ki, danışıqlar prosesini pozmaq və ya siyasi manipulyasiya etmək üçün təxribat törətmək yoluna istinad edərsə, bu, ciddi uğursuzluqla nəticələnəcək, Azərbaycan Ordusu tərəfindən layiqli cavab alacaq. Buna paralel olaraq Azərbaycan xalqının Milli Ordumuza olan inam və dəstəyi də cəmiyyətimizdə mövcud əhval-ruhiyyənin müsbət olduğunu göstərdi. Düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olan hərbi qulluqçularımızın Vətən uğrunda ortaya qoyduqları şücaət xalqımız tərəfindən olduqca yüksək qiymətləndirilir. Bütövlükdə, bütün bunlar konkret bir reallığı ifadə edir: Azərbaycan işğal altında olan torpaqlarını azad etmək iqtidarındadır!

### Şəhid ailələri və müharibə veteranları dövlətin diqqət mərkəzindədir

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda sistemli ordu quruculuğu ilə yanaşı, Vətənin bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə, həmçinin müharibə əlillərinə böyük diqqət və qayğı göstərilir. Bu gün Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və sərəncamlar çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bundan başqa, müharibə əlilləri, veteranları və şəhid ailələrinə göstərilən qayğı nümunəvi xarakter daşıyır. Müharibə əlilləri, veteranları və şəhid ailələrinin sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da çox müsbət haldır.

### Yeni Azərbaycan Partiyasının xeyriyyə aksiyası yüksək qiymətləndirilir

Əlbəttə, Azərbaycan cəmiyyətinin avanqardı və alternativsiz siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası (YAP) da şəhid ailələri və müharibə veteranlarına yüksək diqqət və qayğı göstərir. Bunlarla yanaşı, Azərbaycan Respublikası Silahlı Qüvvələrinə ümumxalq inamının və dəstəyinin əyani ifadəsi olaraq YAP Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fonduna bir neçə dəfə vəsait köçürüb, dəfələrlə xeyriyyə tədbirləri təşkil edib. Yeri gəlmişkən, bu günlərdə Yeni Azərbaycan Partiyasının təşəbbüsü və vəsaiti hesabına Lənkəran rayonu ərazisində yerləşən “Palıdlı sahil” istirahət mərkəzində ötən ilin aprel ayında erməni silahlı birləşmələrinin qoşunların təmas xəttində təxribatçı hərəkətlərinin qarşısını cəsarətlə və qətiyyətlə almış Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup əsgər və zabitinin ailə üzvləri ilə birlikdə yay istirahəti təşkil edilib.

İstirahət günləri ərzində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun Lənkərandakı ev-muzeyinə, rayon ərazisində yerləşən Heydər Əliyev Mərkəzinə və Tarix-Diyarşünaslıq Muzeyinə tur təşkil edilib, eləcə də Lənkəranın bir sıra görməli yerlərinə, o cümlədən Hirkan qoruğuna, Xanbulan çay su hövzəsinə tur və digər bir sıra səfalı məkanlara gəzintilər həyata keçirilib.

Aksiya çərçivəsində “Palıdlı sahil” istirahət mərkəzində istirahət edənlər bu xeyriyyə aksiyasının əhəmiyyətinə toxunaraq ümumiyyətlə dövlətimiz tərəfindən şəhid ailələrinə, müharibə veteranlarına yüksək diqqət və qayğının göstərildiyini diqqətə çatdırıblar. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının təşəbbüsü və vəsaiti hesabına belə bir xeyriyyə aksiyasının keçirilməsi bu qayğının bariz nümunəsidir.

Şəhid əsgər Zakir Cəfərovun anası Kəmalə Abdullayeva deyib ki, dövlətimiz tərəfindən şəhid ailələrinə yüksək diqqət və qayğının göstərilməsi böyük iftixar hissi yaradır: “Oğlum Zakir Vətənin müdafiəsi uğrunda şəhidlik zirvəsinə yüksəlib. Yaralı olduğu halda öz yaralı komandirini xilas etmək üçün irəli atılıb və şəhid olub. Bu, bizim üçün böyük qürur və iftixar mənbəyidir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin şəhid ailələrinə yüksək diqqət və qayğısını xüsusi qeyd etmək istəyirəm. Biz Prezident İlham Əliyevə xüsusi minnətdarlıq hissimizi çatdırırıq”.

Şəhid Tural Dadaşovun anası Kəmalə Dadaşova da şəhid ailələrinə yüksək diqqət və qayğı göstərilməsinin böyük iftixara səbəb olduğunu deyib. O, Yeni Azərbaycan Partiyasının təşkil etdiyi bu xeyriyyə aksiyasının əhəmiyyətinə toxunaraq deyib ki, bu, şəxsən dövlətimizin başçısının şəhid ailələrinə diqqət və qayğısının göstəricisidir: “Mən buna görə şəhid anası olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkür edir, sonsuz minnətdarlığımı çatdırıram”.

“Biz şəhid ailəsi kimi dövlətimizin başçısının yüksək diqqət və qayğısını həmişə hiss etmişik. Məhz Yeni Azərbaycan Partiyasının bu xeyriyyə aksiyasını da böyük məmnunluqla qarşılayırıq. Onu da deyim ki, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün daimi işlər görülür. Bütün bunlara görə dövlətimizin başçısı cənab İlham Əliyevə dərin minnətdarlıq edirik”. Bunu isə şəhid Sarvan Mehralıyevin anası Xatirə Əliyeva deyib.

Gizir Nicat İsgəndərovun atası Bəhruz İsgəndərov isə Azərbaycan Ordusunun öz ərazi bütövlüyünü təmin edəcəyinə inamını vurğulayaraq deyib: “Biz Ordumuzun qüdrətinə inanırıq. Oğlum Nicat Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmaqla həm də Ordumuzun hər bir əsgərinin cəsarətinin, rəşadətinin necə yüksək olduğunu göstərdi. Azərbaycan Prezidenti cənab İlham Əliyevə şəhid ailələrinə göstərdiyi yüksək qayğıya görə sonsuz təşəkkür edirəm!”

Şəhid baş leytenant Tural Həşimlinin atası Əbdül Həşimli isə Yeni Azərbaycan Partiyasının şəhid ailələri və müharibə veteranları üçün xeyriyyə aksiyası keçirməsinin təqdirəlayiq olduğunu bildirib: “Şəhid ailələri, müharibə veteranları Yeni Azərbaycan Partiyasının xeyriyyə aksiyasını yüksək qiymətləndirir”.

# Qubada dövlət qulluqçularının peşə bayramı qeyd olundu






***Dünən dövlət qulluqçularının peşə bayramı ilə əlaqədar Quba rayon icra hakimiyyəti və YAP Quba rayon təşkilatının birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbir iştirakçıları ilk olaraq Ümummilli Lider Heydər Əliyevin rayonda ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq, əziz xatirəsini yad ediblər. Sonra tədbir Quba rayon icra hakimiyyətinin inzibati binasında davam etdirildi.***

Tədbiri giriş sözü ilə açan Quba rayon icra hakimiyyətinin başçısı Yaşar Məmmədov peşə bayramı ilə əlaqədar dövlət qulluqçularını təbrik edib, xoş arzularını bildirib: "Azərbaycan Prezidenti Cənab İlham Əliyev dövlət qulluqçularının peşə bayramı ilə əlaqədar Sərəncam imzalamışdı və həmin Sərəncama əsasən, bir qrup dövlət qulluqçuları orden-medallarla və fəxri fərmanlarla təltif olunmuşdur. Bu təltif olunanların içərisində Quba rayon icra hakimiyyətinin nümayəndəsinin də adı var".

Sonra rayon icra hakimiyyətinin başçısı bir qrup dövlət qulluqçularını fəxri fərmanlarla təltif edib. Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafında, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğunda Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri olduğunu qeyd edib: "Bu gün ölkəmizdə müasir dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatlar uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz inldən-ilə böyük uğurlara nail olur".

Sonda bir qrup YAP sıralarına yeni qəbul edilmiş üzvlərə partiya vəsiqələri, eləcə də, qiymətli hədiyyələr təqdim olunub.

***NƏZAKƏT***




## Müdafiə Nazirliyi: Ermənistan cəbhədəki uğursuzluqlarına bəraət qazandırmaq üçün növbəti dəfə yalan məlumatdan istifadə edir

Müdafiə Nazirliyi təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin 4 hərbçisinin həlak olması barədə Ermənistan tərəfinin yaydığı məlumatlara münasibət bildirib. AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən bildiriblər ki, Ermənistanın hərbi rəhbərliyi cəbhədəki son itki və uğursuzluqlarına bəraət qazandırmağa və vahimə içində yaşayan erməni əhalisinə azacıq "inam" verməyə hesablanmış uydurma və yalan məlumatdan növbəti dəfə istifadə edib. Qeyd edək ki, Ermənistan mətbuatı separatçı Dağlıq Qarabağ rejiminin "Müdafiə Nazirliyi"nə istinadla Azərbaycan xüsusi təyinatlılarının guya iyunun 21-dən 22-nə keçən gecə qarşıdurma xəttini keçmək cəhdinin qarşısının alındığı və 4 nəfər itki verərək geri çəkilmək məcburiyyətində qaldığı barədə məlumat yayıb.

## Baş Klinik Hospital: Aprel döyüşlərində yaralanan hərbçi Türkiyəyə aparılacaq



Aprel döyüşlərində yaralanan şəxsin müalicə olunmaması ilə bağlı sosial şəbəkələrdə yayılan məlumatlara aydınlıq gətirilib. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının tibb hissə rəisi, polkovnik Vüqar Mürsəlov APA-nın sorğusuna cavabında bildirib ki, ötən ilin aprelində döyüşlər zamanı başından ağır yaralanan Yaşar Təvəkkül oğlu Ağayev hazırda hospitalın reanimasiya şöbəsində müalicə alır: "Onun başında cərrahi əməliyyatlar aparılıb və müsbət nəticələr əldə olunub. Lakin onun baş nahiyəsinə süni baş qapağı qoyulması zərurəti yarandığından, bu əməliyyatın Türkiyənin Gülhanə hərbi hospitalında həyata keçirilməsi üçün Müdafiə Nazirliyinin Hərbi Tibb Baş İdarəsi tərəfindən Türkiyənin ölkəmizdəki səfirliyinə müraciət edilib. Danışıqlar nəticəsində Yaşar Ağayevin ən gec iyul ayının əvvəlinədək Türkiyəyə aparılacağı barədə razılıq əldə olunub".

Qeyd edək ki, "Facebook" sosial şəbəkəsində Ağayev Yaşar adlı şəxsin fotoşəkili yerləşdirilərək, onun 2016-cı ilin aprel döyüşlərində başından yaralanması, indiyədək 5 dəfə cərrahi əməliyyat keçirməsinə baxmayaraq, daha bir əməliyyatın Türkiyədə keçirilməsinə ehtiyac olması, lakin ölkə rəhbərliyinin yaralı hərbçilərə yüksək diqqət və qayğı göstərilməsi barədə tapşırıqlarının icrasına məmurlar tərəfindən səhlənkar yanaşılmasına dair xəbərlər yayılıb. Y.Ağayev və onun qohumları bu məlumatın kim tərəfindən yayılmasından xəbərsiz olduqlarını və hospitalda aparılan tibbi müalicə prosesindən narazı olmadıqlarını bildiriblər.

# Ramazan ayı ilin ən şəfaqətli və ən müqəddəs ayıdır

***Bu gün müasir, müstəqil Azərbaycan ölkə Prezidenti İlham Əliyevin dövlət-xalq birliyinə əsaslanan müdrik siyasəti, qətiyyətli iradəsi sayəsində yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Ölkəmiz multikultural dəyərləri təşviq edir, dünyanı həmrəyliyə dəvət edir. Ölkə başçısının həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan ekstremizm, radikalizm, terrorizmə qarşı mübarizənin önündə gedən dövlətlərdən biridir və islam dünyasının inkişafına öz töhfəsini verir.***



Sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində inkişaf dövrünü yaşayan Azərbaycan mövcud olan tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan dövlətə çevrilib. Ölkədə formalaşan tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrildiyindən, bu gün ölkəmiz dini tolerantlığın ünvanı olaraq da dünyada tanınır. Müxtəlif dini mənsubiyyətə malik insanların cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərilərində hiss etməsi də Azərbaycanda tolerantlıq mühitinin əsas göstəricisidir. Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət sayəsində reallaşıb. Azərbaycanda dövlətin dəstəyi ilə sinaqoqlar, məscidlər, kilsələr tikilib, bərpa olunub və bu, davam etməkdədir. Bu gün Azərbaycanda bütün dinlərin nümayəndələri mehribanlıq şəraitində yaşayır və hüquqları tam təmin edilir, müqəddəs hesab olunan milli-dini bayramların keçirilməsinə yüksək şərait yaradılıb.

Müstəqil dövlətimizdə Azərbaycan xalqının milli və dini mərasimləri, bayramları hər il dövlət səviyyəsində qeyd olunur. Hikmətlər xəzinəsi "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan bayramı da bu gün böyük sevinclə qeyd edilir. Azərbaycan Prezident Cənab İlham Əliyevin vurğuladığı kimi, müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayı mənəviyyatı möhkəmləndirən, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir:"Bu bayram insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır". İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da bu ay ərizində əmin-amanlıq, qardaşlıq kimi dəyərləri nümayiş etdirmiş oldu. Oruc tutmaqla insanlar iradə qüvvələrini, dözümlülüyünü, təmiz olduqlarını da göstərə biliblər. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanırdılar ki, bu gün də Orucluğun sınaqlarından alnıaçıq çıxan insanlar bu bayramı yüksək əhvali-ruhiyyə ilə qeyd edirlər.

Ramazan bayramı Ramazan ayının sonunda, Orucun sona çatması münasibətilə qeyd edilir. Ramazan ayı təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Orucluğun başa çatdığı gün fitr bayramı adlanır ki, həmin gün bütün müsəlmanlar bir-birilərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Xalqımız mübarək Ramazan ayını, hər il olduğu kimi, bu il də böyük sevinc hissi ilə yola salır.

Ramazan bayramınız mübarək!

**NƏZAKƏT**



# Yerli şirkətlər və korporativ sosial məsuliyyət

*Korporativ məsuliyyət, məsuliyyətli biznes və ya korporativ sosial imkanlar adlanan korporativ sosial məsuliyyət konsepsiyası, müəyyən bir təşkilatın ictimai maraqları nəzərə alaraq, bu sferadakı fəaliyyətin məsuliyyətini üzərinə götürməsidir. Bu sosial öhdəlik ictimai fəaliyyət zamanı qanunvericilik sərhədlərini aşır və müəyyən bir təşkilat işçilərinin və onların ailələrinin, yaxud yerli insanların, cəmiyyətlərin həyat şəraitinin yüksəldilməsi öhdəliyini könüllü olaraq həyata keçirir.*

## KSM KONSEPSİYASI:

**Uzunmüddətli perspektivə hesablanmış fəaliyyət**

Əlbəttə ki, korporativ sosial məsuliyyət (KSM) sahəsindəki təcrübə və biliklər bir sıra hallarda mübahisə yaradır, tənqidlərə yol açır. Məsələn, KSM konsepsiyasının tərəfdarları bildirirlər ki, bununla şirkətlər güclü iqtisadi əsasa malik olurlar və uzunmüddətli perspektivə hesablanmış fəaliyyət sərgiləyirlər. Yəni korporativ sosial məsuliyyət konsepsiyasını həyata keçirən təşkilatlar qısamüddətli gəlirləri deyil, perspektiv inkişaf yolunu seçirlər. Lakin KSM konsepsiyasının tənqidçiləri iddia edirlər ki, guya bu, biznesin sosiumdakı fundamental iqtisadi rolunu azaldır. Amma bu konsepsiyanın dünyanın inkişaf etmiş ölkələrində böyük şirkətlər, təşkilatlar tərəfindən qəbul edilməsi, bu çərçivədə geniş fəaliyyət ortaya qoyulması onu göstərir ki, KSM heç də tənqidçilərin bildirdiyi kimi mənfi tendensiyalara yol açmır.

İşgüzar etikadan korporativ sosial məsuliyyətə doğru:

## BEYNƏLXALQ TƏCRÜBƏ

KSM termini 1970-ci illərdən etibarən leksikona daxil olub. İlk vaxtlarda bu anlayışdan işgüzar etika problemini ehtiva etmək üçün istifadə edilirdi. Yəni bu kateqoriyaya biznes mühitində ortaya çıxan problemlərin həllində önəmli rol oynayan etik və mənəvi prinsiplər çoxluğu kimi baxılırdı. Lakin müasir dövrdə KSM yeni cəmiyyətin və insanların maraqlarının nəzərə alınması, onların həyat şəraitinin yüksəldilməsi və digər faktorlar kimi qəbul edilir. İqtisadçı Vüqar Bayramovun sözlərinə görə, korporativ sosial məsuliyyət gəlir əldə edən şirkətin cəmiyyət qarşısında sosial məsuliyyətinin olmasının göstəricisidir. Cəmiyyət qarşısında sosial öhdəliyin olması vacib amildir: "İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, korporativ sosial məsuliyyət bu dövlətlərdə inkişaf edib və biznes nümayəndələri cəmiyyət qarşısında daha məsuliyyətlidir. Məhz sahibkarlar əldə etdikləri gəlirlərin bir hissəsini cəmiyyətlə bölüşürlər. Müxtəlif sosial layihələrin maliyyələşdirilməsi, humanitar tədbirlərin həyata keçirilməsi nəticəsində, artıq korporativ sosial məsuliyyətə malik olurlar".

"REALeadership Alliance" bildirir ki, məhz dünyanı biznes liderləri dəyişməlidirlər. Bir sıra dini və mədəni ənənələr müəyyən edirlər ki, iqtisadiyyat insanlara xidmət etməlidir və iqtisadi təşkilatlar cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Bu baxımdan, bu gün bir sıra təşkilatlar da mövcuddur ki, biznesin korporativ sosial məsuliyyətə cəlb edilməsi üçün stimullaşdırıcı tədbirlər görür. Məsələn, "Sosial məsuliyyət nişanı" adlı layihə çərçivəsində "Social Responsibility Mark" təşkilatı müştərilərinə və müştərək şirkətlərə sosial layihələrin reallaşdırılması müqabilində özünün ticarət nişanından istifadəyə icazə verir.

Bu gün korporativ sosial məsuliyyət konseosiyasından irəli gələrək "British American Tobacco", BP, McDonald's kimi təşkilatlar da həm işçiləri, həm də cəmiyyəti narahat edən sosial problemlərlə bağlı, xüsusilə də, ekologiya sahəsində müxtəlif layihələr reallaşdırırlar. Həmçinin, "Shell" Fondu Cənubi Afrikanı Çiçəkli Dərə adlanan ərazisində uzun illərdir ki, KSM konsepsiyasının bir sıra istiqamətlərini reallaşdırmaqdadır. Belə ki, fond sözügedən ərazidə yerli əhalinin, xüsusilə də, uşaqların təhsil alması üçün təhsil mərkəzləri yaradıb.

"Marks & Spencer" şirkəti də bu sahədə geniş fəaliyyət sərgiləyir. Məhz bu təşkilatın dəstəyi ilə Afrikada ədalətli ticarət şəbəkəsi formalaşdırılıb ki, bunun köməyi ilə böyüklərin savadlanması üçün tədris, eyni zamanda, QİÇS və HİV-ə qarşı mübarizə mərkəzləri açılıb. Rusiyada da KSM konsepsiyası haqqında təsəvvürlər biznes mühitinə ayaq açmaqdadır. Məhz bu ölkədə KSM-in ən geniş yayılmış forması sosial investisiyaların yatırılması təşkil edir. Məsələn, "Qazpromneft" şirkəti infrastruktur obyektlərinin yerləşdiyi bölgələrdə fəaliyyətini yalnız həmin ərazilərdə yaşayan yerli insanları işə cəlb etməklə qurur.

Göründüyü kimi, dünyanın bir sıra şirkətləri əsasən Afrika ölkələrinə sosial investisiyalar yatırmaqla korporativ sosial məsuliyyət konsepsiyasını reallaşdırmış olurlar. Ancaq Qərbdə elə şirkətlər də vardır ki, KSM-i yalnız inkişaf etməkdə olan ölkələrin kasıb və aztəminatlı insanlarına yardım etmək kimi çox primitiv şəkildə qəbul edirlər. Lakin o da bəllidir ki, hazırda dünyada fəaliyyət göstərən iri şirkətlərin böyük əksəriyyəti bu yanaşmanı səhv hesab edir. Çünki əsaslı vasitələr formalaşdırılmadığından, bu yanaşma ilə yerli əhalinin həyat səviyyəsini yüksəltmək mümkün olmayacaq. Elə iqtisadçı Vüqar Bayramovun fikirləri bu prizmada özünü doğruldur. O deyir: "Bəzi hallarda biznesin xeyriyyə tədbirlərini korporativ sosial məsuliyyətlə eyniləşdirirlər. Korporativ sosial məsuliyyət xeyriyəçilik deyil, daha iri və daha kompleksli yanaşma tərzidir. Korporativ sosial məsuliyyət xeyriyəçilikdən fərqli bir məsuliyyətdir və cəmiyyətin inkişafının biznes tərəfindən stimullaşdırılması istiqamətində həyata keçirilən layihələrin dəstəklənməsi deməkdir. Bu baxımdan, korporativ sosial məsuliyyət biznesin inkişafına, bütövlükdə ölkənin tərəqqisinə töhfəsini vermiş olur".



Beləliklə, beynəlxalq təcrübədən də görürük ki, dünyada KSM konsepsiyası böyük şirkətlər tərəfindən əsasən təhsil, səhiyyə, infrastruktur və s. sektorlara sosial investisiyaların yatırılması yolu ilə insanların savadlılığının, sağlamlığının, eyni zamanda, həyat şəraitinin yüksəldilməsi istiqamətində reallaşdırılır.

**Azərbaycanda korporativ sosial məsuliyyət:**

## REAL VƏZİYYƏT

Bu gün sürətli inkişaf dövrü keçən Azərbaycanda da korporativ sosial məsuliyyət nümunələrini müşahidə etmək mümkündür. Xüsusilə də, nəzərə alsaq ki, ölkə iqtisadiyyatı genişlənir, sahibkarlar üçün əlverişli mühit yaradılır və belə bir şəraitdə biznes nümayəndələri gəlir əldə edirlər, bu zaman onların cəmiyyət qarşısındakı sosial məsuliyyətləri də üzə çıxmış olur. Əlbəttə ki, ölkəmizdə şirkətlər və təşkilatlar məcburi şəkildə sosial məsuliyyətə cəlb edilmirlər. Eyni zamanda, qanunvericilikdə də bu baxımdan hər hansı imperativ maddələr mövcud deyildir. Lakin buna baxmayaraq hazırda bir sıra şirkətlər və təşkilatlar korporativ sosial məsuliyyətin primitiv formasını reallaşdırırlar. Məsələn, şirkətlər müxtəlif bayramlarda, yaxud əhəmiyyətli günlərdə cəmiyyətimizin aztəminatlı üzvlərinə yardımlar etməklə kifayətlənirlər. Bu sırada əsasən "Veysəloğlu" Şirkətlər Qrupu, "Azərsun" Holding və s. kimi şirkətlər durur. Lakin qloballaşan dünyanın tələbləri genişləndikcə Azərbaycanda fəaliyyət göstərən şirkətlərin də korporativ sosial məsuliyyət istiqamətləri dəyişməlidir. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında diqqətə çatdırıb ki, sosial məsuliyyət nəzərə alınmalı, şirkətlərdə ixtisar hallarının olmamasına çalışılmalıdır: "Çünki iş adamlarına dövlət hərtərəfli dəstək verir və iş adamları da sosial məsuliyyətlərini dərk etməlidirlər".

Azərbaycanın I vitse-prezidenti Mehriban xanım Əliyeva da dəfələrlə qeyd edib ki, böyük infrastruktur layihələrinin icrasına cəlb olunmuş Azərbaycan şirkətlərinin və sahibkarlıq subyektlərinin sosial məsuliyyəti artmalı, işgüzar dairələr sosial layihələrdə iştirak etməlidir.

**Korporativ sosial məsuliyyətin Heydər Əliyev Fondu nümunəsi**

Bu məqamda bildirməliyik ki, şirkətlər sosial məsuliyyət fəaliyyətinin əsl nümunəsini Heydər Əliyev Fondunun həyata keçirdiyi işlərin timsalında görə bilərlər. Məhz Heydər Əliyev Fondu korporativ sosial məsuliyyətin əsas prinsiplərini reallaşdırır, cəmiyyəti narahat edən sosial problemləri həll edir, insanların həyat şəraitinin, təhsilinin səviyyəsinin, sağlamlığının yüksəldilməsi üçün layihələr həyata keçirir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə körpələr evləri, bağçalar, məktəblər, valideyn himayəsindən məhrum olan və uşaq evlərini bitirən gənclər üçün yaşayış binaları, səhiyyə ocaqları, təhlükəli xəstəliklərin müalicəsi mərkəzləri, mədəniyyət ocaqları inşa edilir, həmçinin, "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi", kimsəsizlərin istirahətə və müalicəyə göndərilməsi, eyni zamanda, idman, İKT, ətraf mühit sahəsində yüksək sosial əhəmiyyəti olan layihələr reallaşdırılır. Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, eyni zamanda, Avropada, Asiyada, hətta Afrikada da müxtəlif sosial layihələr reallaşdırmaqla bütün dünyaya korporativ sosial məsuliyyətin nümunəsini təqdim edir.

Beləliklə, araşdırmanın yekunu olaraq, deyə bilərik ki, korporativ sosial məsuliyyət şirkətlərin insanlar və cəmiyyət qarşısında sadə məsuliyyəti demək deyildir. Əksinə, bu, şirkətin, yaxud təşkilatın ictimai və iqtisadi-sosial fəaliyyətinin əsasını təşkil edən insanların layiqli həyat şəraitinin təminatı, ətraf mühitin qorunması ilə cəmiyyətin ümumi inkişafının qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi kimi prinsiplərinin fəlsəfəsidir. Məhz şirkətlər əldə etdiyi gəlirin bir hissəsini həmin gəliri yaradan cəmiyyətlə, insanlar kollektivi ilə bölüşməlidir. Çünki bu biznes insanların, vətəndaşların hesabına inkişaf edir və gəlir gətirir. Sahibkarın gəlir əldə etməsində, onun fəaliyyətinin genişləndirilməsində birbaşa vətəndaşın töhfəsi hesabına baş verirsə, sahibkar da cəmiyyətin inkişafında maraqlı olmalı, onu stimullaşdırmalıdır. Biznes nümayəndələri gəlirlərinin bir hissəsini könüllü şəkildə cəmiyyəti narahat edən sosial məsələlərin həlli istiqamətində xərcləməlidir. Yalnız bu yolla dövlətin üzərinə düşən sosial yükün azalması baş verər və cəmiyyəti narahat edən sosial problemlər aradan qaldırılar.

***Ruqiyyə Nəcəfzadə***

*Yazı Azərbaycan Mətbuat Şurası və "Veysəloğlu" Şirkətlər Qrupunun "İqtisadi islahatlar və qeyri-neft sektorunun inkişafında yeni hədəflər" mövzusundakı müsabiqəsinə təqdim olunur.*

## Bakı-Batumi avtobus reysi iyunun 26-dan etibarən fəaliyyətə başlayacaq

İyun ayının 26-dan etibarən Bakı Beynəlxalq Avtovağzal kompleksindən həftənin 1, 3, 5-ci günləri olmaqla Bakı-Batumi reysi fəaliyyətə başlayacaq. Avtobuslar Bakı vaxtı ilə saat 18.00 yola düşəcək, təyinat məntəqəsinə - Batumi şəhərinə isə növbəti gün saat 09.00-da çatacaq.

Bakı Beynəlxalq Avtovağzal Kompleksindən AZƏRTAC-a bildirilib ki, gediş qiyməti 40 manat təşkil edir. Beş yaşına qədər uşaqlara bilet pulsuzdur, 5 yaşından-10 yaşına qədər uşaqlar üçün biletin qiymətinin 50 faizi məbləğində ödəniş edilir. Gələcəkdə sərnişin sıxlığı çox olduğu təqdirdə avtobusların hər gün reysə çıxması məsələsi də nəzərdən keçirilə bilər. Avtobuslar kondisioner və Wi-Fi sistemi ilə təchiz olunub. Sərnişinlərə biletləri əvvəlcədən almaları tövsiyə olunur.

SİYASİ RAKURS

***Dağıdıcı müxalifət liderlərinin 2018-ci ilin prezident seçkilərinə hazırlaşdıqlarını öz tədbirlərinə uyğun şəkildə "inamla" bəyan etmələri ictimai rəy tərəfindən ciddiyə alınmır. Daha dəqiq desək, dağıdıcı ünsürlərdən olan AXCP və Müsavat kimi partiyaların aparıcı, üzvləri hər seçkilərdə olduğu kimi, bu dəfə də umacaqlarını xalqda deyil, xarici maraqlı dairələrdə axtaracaqlarını gizlətmirlər. Ancaq geridə qalan bütün parlament və prezident seçkilərinin nəticələrindən də görünən fakt budur ki, Azərbaycanda formalaşmış siyasi mühit yalnız xalq seçiminə söykənir və heç bir xarici dairə, yaxud da qüvvə xalqın maraqlarını əzib keçmək iqtidarına malik deyil.***



# 2018-ci ildə Rüstəm İbrahimbəyov ssenarisi təkrarlana bilərmi?

## *Əli Orucov: "Həmin ssenari sonda müxalifətin zərərinə, hakimiyyətin xeyrinə işlədi"*

### Heç bir xarici təsir ölkəmizdə keçirilən əhəmiyyətli ictimai-siyasi olaylara təsir etmək gücündə olmayıb, olmayacaq da

Elə uzağa getməyərək, ötən prezident seçkiləri ərəfəsində baş verən hadisələri qısaca xatırlatsaq, bu gün "əminliklə" və "biz gəlirik" şüarı ilə çıxış edənlərin hansı rüsvayçı vəziyyətə düşdüklərini görmək olar. Məsələn, xatırlaya bilərik ki, 2013-cü ildə keçirilən prezident seçkilərinə təxminən bir il qaldığı zaman kinodramaturq Rüstəm İbrahimbəyovun "ulduzu" kino çəkilişi pavilyonlarından fərqli olaraq, siyasi meydanda "parlamağa" başladı və qısa zamanda, elə bir proses həyata keçirildi ki, İbrahimbəyov ənənəvi müxalifət düşərgəsinin əksər hissəsi tərəfindən "lider" qismində "qəbul" edildi. Beləliklə, get-gedə aydın oldu ki, R.İbrahimbəyov "Milli Şura" Rusiyanın qaranlıq siyasi dairələrinin Azərbaycandakı prezident seçkiləri öncəsi təşkil etdikləri layihədir və bu layihədən xalqın dəstəklədiyi Azərbaycan iqtidarına qarşı təzyiq rıçaqı kimi istifadə etmək olacaq. Lakin bu qüvvələrin maraqları təmin olunmadı qaldı və sonrakı proseslərin necə cərəyan etməsini həmin siyasi proseslərlə ilgilənən insanlar kifayət qədər yaxşı xatırlayırlar. Fakt isə bu idi ki, heç bir xarici təsir ölkəmizdə keçirilən əhəmiyyətli ictimai-siyasi olaylara təsir etmək gücündə olmayıb, olmayacaq da.

### AMİP funksioneri: "Rüstəm İbrahimbəyov ssenarisi" müxalifət düşərgəsinin məlum qanadının da daxil olduğu ən pis və ən uğursuz ssenari idi"

Daha bir məqam isə budur ki, dağıdıcı müxalifət yetkililəri indinin özündə yenidən bənzər oyun oynamaqla "hakimiyyətə gəlmək şansı" olduqları qənaətindədirlər. Əlbəttə, köhnə təfəkkürə malik olan meydan "qəhrəmanları"nın" bundan ötəyə düşünəcək siyasi bilgiləri yoxdur. Ona görə də, təzədən "R.İbrahimbəyov oyunu" ətrafında siyasi gedişlər edəcəklərini və bu gedişlərdən səmərə götürəcəklərini xəyal edirlər.

Məsələ ilə bağlı AMİP mərkəzi şurasının üzvü, partiyanın katibi Əli Orucovun da fikirləri maraqlıdır. Onun sözlərinə görə, "Rüstəm İbrahimbəyov ssenarisi" müxalifət düşərgəsinin məlum qanadının da daxil olduğu ən pis və ən uğursuz ssenari idi. "Həmin ssenari sonda müxalifətin zərərinə, hakimiyyətin xeyrinə işlədi"- deyə qeyd edən Ə.Orucova görə, Rusiyanin qaranlıq siyasi dairələri yeni "İbrahimbəyov ssenarisi" hazırlasa belə, bu ssenari uğursuzluqla nəticələnəcək.

**Rövşən RƏSULOV**

# Əli Kərimli ölkədən qaçmağa hazırlaşır

## *Leyla Yunusun Arif Hacılıya müyyən vədlər verdiyi də bildirilir*

Son günlərə qədər ənənəvi müxalifət daxilində durğunluq hökm sürsə də, artıq arasıra partiya sədrlərinin səslərinin çıxmağa başladığı müşahidə olunur. Bu isə hansısa qüvvənin müxalifətə təsir etdiyini göstərir. Çünki müxalifət müstəqil düşünmək və düşündüklərini həyata keçirmək imkanına və gücünə malik deyil. Həm də, hazırkı, məqamda müxalifət partiyalarından ara-sıra istefalar baş verdiyindən, müxalifət liderlərinin növbəti gərginlik ocaqlarının yaranmasını üçün aktivlik göstərməkdə maraqlı deyillər. Misal kimi, AXCP sədri Əli Kərimli sosial şəbəkələr vasitəsi ilə həmfikirlərinin ünvanına bir-iki status guppuldatdığına görə rəqiblərinin təzyiqlərinə və təhqirlərinə məruz qaldı. Ən pisi də, o oldu ki, 15 nəfər gənc AXCP-dən istefa verərək, Rəsul Quliyevin lideri, Ağasif Şakiroğlunun isə sədri olduğu "Gələcək Azərbaycan Partiyası"na qoşulduqlarını bəyan etdilər. "GAP" sədri Ağasif Şakiroğlu iddia edir ki, yaxın vaxtlarda AXCP-dən növbəti istefalar olacaq: "Kiminsə arxasında gizlənərək yazı yazıb, başqa bir insan adından yaymaq Ə.Kərimli xüsusiyyəti və "əxlaqıdır". Fərarilik Ə.Kərimliyə məxsusdur. Çünki keçmişi ləkəli olan Ə.Kərimli həmişə narahat olacaq. Çünki AXCP sədri digər müxalifət liderlərinə qara yaxmaqla müxalifətdə monopolist olmasını təmin etmək yolu seçib. Düşünür ki, müxalifəti monopoliyaya ala bilərsə, bu gün əlinə oynadığı "5-ci kolon"un rəhbərindən daha çox bəxşiş keçəcək. Bu səbəbdən də, bu eybəcər yolu davam etdirir".

ADP sədri Sərdar Cəlaloğlu da Ə.Kərimlini cüzi fəallq göstərməsinə peşman edib. ADP sədri bildirib ki, Ə. Kərimli bu günə kimi düzgün bir əxlaqa malik siayasət aparmayıb: "Ə.Kərimli özünü müxalifətin lideri sayır. Axı sən kimsən? Bu gün heç AXCP lideri ola bilməmisən. Elçibəyin ölümündən sonra partiya parçalandı. Onun hansı addımı cəmiyyət və müxalifət düşərgəsi daxilində qəbul edilir? O, 10-15 nəfər gənci internetə qoşub, özünə səs yazdırmaqla məşğuldur. Bu, balaca uşağın öz-özü ilə oynamasına bənzəyir. Bunlar Ə.Kərimlinin özünə qarşı işləyən bir "piar"dır. O, ən çox ittihamlara məruz qalmalı olan adamdır. Ə. Kərimli deyir ki, Elçibəy liderimdir. Qeyd edim ki, ələnə qədər Elçibəy onu yaxına buraxmamışdı. Çünki ona sağlığında xəyanət etmişdi. Sən özün bir keçdiyin yola bax. Müxalifətin bu günə düşməsinin baiskarı sənsən".

Göründüyü kimi, Ə.Kərimlinin bir qədər fəallıq göstərməsi ona baha başa gəlib. AXCP sədrinin fəaliyyətindən narazı qalan və ya əməllərindən ciddi ziyan çəkən həmfikirləri onun cəzalandırılmasına çalışırlar. Hətta bəzi müxalif partiya sədrləri eləcə də, Hafiz Hacıyev, S.Cəlaloğlu, Razi Nurullayev və digərləri onun həbs olunaraq məhkəmə qarşısında oturdulmasını tələb edir və bu yöndə hüquq-mühafizə orqanlarına çağırışlar edirlər. Bir neçə dəfə Ə.Kərimlinin prokurorluğa çağırılması, onu deməyə əsas verir ki, müxalifət partiya sədrlərinin tələbləri yaxın vaxtlarda reallığa çevrilə bilər. Araşdırmalar göstərir ki, Ə.Kərimlinin özü də həbs oluna biləcəyindən duyuq düşüb. Bunu AXCP-dəki, məlumatlı mənbəmiz də bizimlə söhbətində təsdiqlədi. Bildirdi ki, Ə.Kərimi etdiyi pozuculuq əməllərinə və Elçibəyin zəhərlənməsi faktlarına, eləcə də, xarici xüsusi xidmət orqanları ilə əməkdaşlığına görə, həbs olunacağını başa düşdüyündən, Azərbaycandan qaçmağı planlaşdırır. Bunun üçün xarici himayədarları ilə danışıqlar və sövdələşmələr aparır.

### Arif Hacılı ümidini indi də Leyla Yunusa bağlayır

Hazırkı, məqamda diqqətçəkən faktlardan biri də odur ki, Müsavat müxalifətdaxili böhranlı vəziyyətdən istifadə edərək, önə çıxmağa çalışır. Qondarma jurnalist Əfqan Muxtarlının qaçaq yolu ilə Gürcüstandan Azərbaycana keçərkən, həbs olunmasından sonra Müsavat funksionerləri ardıcıl olaraq, pozuculuğa xidmət edən açıqlama və bəyanatlarla çıxış etdilər. Bir neçə dəfə Baş prokurorluq Arif Hacılıya, Gülağa Aslanlıya, Mustafa Hacıbəyliyə xəbərdarlıq etsə də, görünən odur ki, sözügedən şəxslər hədyan bəyanatlarını dayandırmaq firkrində deyillər. Bu da, onu göstərir ki, Müsavat diqqət mərkəzinə çevrilmək üçün qarşıdurma yaratmaqdan belə çəkinmir. Mətbuatda yayılan informasiyalara və Müsavatdan verilən məlumatlara əsasən, demək olar ki, A.Hacılını pozuculuğa meyil göstərməyə Leyla Yunus təhrik edir. Daha doğrusu, müeyyən şirnikləndirici vədlərlə A.Hacılını ələ alan L.Yunus ondan öz çirkin məqsədləri üçün istifadə etməyə çalışır. Maddi və mənəvi dəstəyə ehtiyacı olan A.Hacılı böyük istəklə L.Yunusun tapşırıqlarını yerinə yetirməyə çalışır.

Ümumiyyətlə, A.Hacılı kimi məxluqlar siyasi arenaya çıxıb, siyasi fəaliyyətə başlayandan bu günə qədər təmsil olunduqları düşərgədə birincilik uğrunda "amansız müharibə" aparırlar. Bu qovğa və qarşıdurmalar sonda ciddi problemlərin yaranmasına gətirib çıxarıb. Daha doğrusu, partiya liderləri arasında formalaşmış birincilik mücadiləsi təşkilatların digər qurumlarına da sirayət edir. Beləcə, "düşmənçilik" hissləri sıravi üzvlərə də keçir ki, nəticədə, partiyalardan kütləvi qopmalar, bir partiyadan digər partiyalara transferlər baş verir. Proseslərə əsasən, demək olar ki, hazırkı mərhələdə daha çox AXCP-Müsavat qarşıdurması diqqəti cəlb edir. Xüsusilə də, Müsavatın "Milli Şura" deyilən qondarma qurumdan çıxmasından sonra iki partiya arasında münasibətlərin gərginləşdiyi müşahidə olunub.

"Azadlıq" partiyasının sədri Əhməd Oruc bildirib ki, AXCP-Müsavat funksionerlərinin savaşı qeybətcil və cılız iddialar üzərində qurulan savaşdır: "Müsavatla AXCP arasında gedən bu "savaşın" üzdə görünən səbəblərinə nəzər saldıqda, bu mənzərənin qeybətcil, mənasız və cılız olduğu ortaya çıxır. İlkin olaraq, belə bir nəticəyə gəlinir ki, hər iki partiyada baş verənlər onların ciddi bir işi ortaya qoya bilmədikləri üzündən baş verir. Amma necə deyərlər, "dəyirman öz işindədir, çax-çax baş ağrıdır".

### İlin sonuna qədər Müsavat və AXCP kimi partiyalar tamamilə parçalanaraq tarixin arxivinə atılacaqlar

Bir sözlə, görünən odur ki, AXCP ilə Müsavat arasında qarşıdurma sağalması mümkün olmayan xəstəliyə çevrilib. Bunun müalicəsi isə, hələ ki, tapılmır. Arada-bir Müsavatın və ya AXCP-nin bəlli funksionerləri əllərində hazır reseptlə Qərbə və ABŞ-a dərman axtarışı üçün üz tutsalar da, eliboş geri qayıdıblar. Qərb dövlətlərinin Bakıdakı səfirliklərində keçirdikləri görüşlər də nəticəsiz qalır. Fəaliyyətini qərəzli xarici dairələrin dağıdıcı maraqlarının təmin olunması missiyası üzərində quran dağıdıcı müxalifət Azərbaycanda xaos yaratmaq, təkmil struktur elementlərinə malik olan və möhkəm əsaslara söykənən siyasi sistemin sabitliyini sarsıtmaq üçün ən müxtəlif çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinmir. Bu da dağıdıcı müxalifətin çirkin və yaramaz siyasətinin dəyişməsinin mümkün olmadığını göstərir. Söz yox ki, sivil mübarizə üsulundan, azad və demokratik seçki prinsplərindən uzaq olan müxalifət məhvə məhkumdur. Necə ki, artıq müxalifəti bu fəlakət gözləməkdədir. Ehtimal ki, bu ilin sonuna qədər Müsavat və AXCP kimi partiyalar tamamilə parçalanaraq, tarixin arxivinə atılacaqlar. Ən azı isə, sözügedən partiyaların hansısa partiyalara birləşəcəyini proqnozlaşdırmaq olar.

**İ.ƏLİYEV**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığın artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Azərbaycanda insan hüquq və azadlıqlarının təminatçısının milli və beynəlxalq mexanizmləri

***Məlum olduğu kimi, XX əsrin sonlarında dünya miqyasında insanların hüquqlarının təminatı sahəsində mühüm irəliləyişlər baş verdi:***

**1.** İnsanın dövlətə xidmət etdiyi sovet sistemi dağıldı; dövlətin insana xidmət etdiyi dövr yarandı;

**2.** İnsan hüquqlarının "İlahi qanun"dan "insani qanun"a çevrilməsi prosesi başladı;

**3.** Yeni milli dövlətlərdə insan hüquq və azadlıqlarının təminatının milli və beynəlxalq mexanizmləri vəhdət təşkil etdi.

İnsan hüquq və azadlıqlarını universal mexanizminin səviyyələri aşağıdakılardır:

**1.** Dövlətlərarası (beynəlxalq);
**2.** Dövlətdaxili (milli);
**3.** Lokal (yerli).

İnsan hüquqlarının beynəlxalq təminatı ilə bağlı müasir hərəkat, məhz İkinci Dünya Müharibəsi dövründə başlanmışdır. Böyük Britaniya və ABŞ-ın müharibəyə qoşulmasının səbəbi, özlərinin bəyan etdiklərinə görə, heç də Birinci Dünya müharibəsindəki kimi, "demokratiyanın inkişafı naminə sülhü bərqərar etmək cəhdi" ilə yox, insan hüquqlarının (Ruzveltin göstərdiyi dörd cür azadlığın) hər bir ölkədə hər bir insan üçün bərqərar olması ilə əlaqədar idi. Faşizmə qarşı mübarizədə irəli sürülmüş bu şüar müharibədən sonrakı dövrdə də beynəlxalq sabitliyin planlaşdırılmasının əsasını təşkil etdi.



Müharibədən sonra müttəfiqlər insan hüquqları prinsipini sülh sazişlərinə daxil etdilər və həmin prinsip hərbi canilərə qarşı başlıca ittiham maddəsinə çevrildi. Müharibədən sonra müttəfiqlər insan hüquqlarına təminatı məğlubiyyətə uğramış Almaniya, Avstriya və Yaponiya konstitusiyalarına daxil etdilər. Lakin dünyada hər kəsin ayrılmaz hüquqları ilk dəfə BMT-nin yaradılmasını bəyan edən sənəddə Birləşmiş Millətlər Xartiyasında (1945) öz əksini tapdı.

BMT Xartiyası Millətlər Liqası haqqında sazişdə ifadə olunan "döyüş bölgələrində azlıqların taleyi ilə bağlı narahatlığı" yer üzündə yaşayan hər bir insanın taleyi üçün narahatlıqla" əvəz etdi. "İnsan hüquqlarına və irqindən, cinsindən, dilindən və dini mənsubiyyətindən asılı olmayaraq, istisna.

İnsan hüquq və azadlıqlarının amili (dövlətdaxili) mexanizmləri aşağıdakılardan ibarətdir:

- İnsan və vətəndaşın hüquq və azadlıqlarının ümumi təminatı;
- Hüquq və azadlıqların müdafiəsi;
- Məhkəmə müdafiəsi;
- Beynəlxalq müdafiəsi;
- Zərərin ödənilməsi;
- Ədalət mühakiməsinin konstitusion təminatları;

Azərbaycanda insan hüquq və azadlıqlarının təminatçısı aşağıdakılardır:

**1.** Konstitusiya Məhkəməsi;
**2.** Ölkə Prezidenti.

Azərbaycan Respublikasının hər bir vətəndaşı Konstitusiya Məhkəməsinə müraciət edə bilər.

Ölkə Prezidentinin insan hüquq və azadlıqlarının müdafiəsini təmin etməsinə gəldikdə, bu barədə siyasi elmlər doktoru, professor Hikmət Babaoğlu yazır: "Bütövlükdə, dövlət hakimiyyətinin üç qolu Azərbaycanda insan hüquqları və azadlıqlarının dövlətdaxili müdafiəsi və təmin edilməsi metodları, prosedur və vasitələrini müəyyən edir. Bu dövlətdaxili milli müxanizmlər sırasında xüsusi olaraq, bizim fikrimizcə, ölkə Prezidenti tərəfindən insan və vətəndaş hüquqları və azadlıqlarının konstitusion təminatçısı kimi müdafiəsini ayırmaq olar. Məhz bununla əlaqədar Azərbaycan Respublikasının sabiq Prezidenti Heydər Əliyev 1998-ci il oktyabrın 18-də özünün andiçmə mərasimindəki nitqində qeyd etmişdir: "Prezident kimi mənim üçün hər bir Azərbaycan vətəndaşının hüququnun qorunması vacibdir... Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq, daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin. İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir".

Ümumiyyətlə, bütün mərhələlərdə Heydər Əliyevin rəhbərliyinin mahiyyətini təşkil edən dəyərlər sırasında insan hüquq və azadlıqlarının qorunması, humanizm və ədalət prinsipləri həmişə üstün yer tutur. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı hüquq islahatları, məhkəmə sisteminin təkmilləşdirilməsi, məhz bu prinsiplərə xidmət edir.

O, respublikamızda demokratik-hüquqi dövlət quruculuğu prosesini insan hüquqlarının təmin edilməsi kontekstində səciyyələndirərək, göstərirdi ki, "Biz demokratiya yolu seçmişik, demokratiyanı da inkişaf etdiririk. İnsan haqlarını təmin etmişik. Azərbaycanda mətbuat azadlığı və vicdan azadlığı, söz azadlığı tamamilə təmin olunubdur. Siyasi plüralizm hökm sürür. Hər şey demokratik prinsiplər əsasındadır". Şübhəsiz ki, bütün bunlar da ölkəmizdə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

XX əsrin 20-ci illərində insan hüquq və azadlıqlarını 12 ölkə, 60-cı illərdə 36 dövlət dəstəkləyirdisə, 90-cı illərdə artıq 60 ölkə azad və demokratik ölkə kimi insan hüquq və azadlıqlarını müdafiə edir.

Bundan başqa insan azadlığı və rifahı vəhdət təşkil edir. "Demokratiya: gediləsi uzun bir yol" kitabında bu barədə geniş bəhs edilmişdir.

20-ci əsr həm də bir sıra ziddiyyətləri, o cümlədən, şəxsiyyətin azadlığı ilə ümumi rifahı yüksəltmək səyləri arasındakı, dövləti insan azadlığı üçün təhlükə hesab edən və ona məhdudiyyət qoymağı vacib sayan klassik liberalizmlə dövləti hamının firavanlığı naminə planlaşdırma aparmaq, fəal şəkildə cəmiyyətin işinə qarışmaq və iqtisadiyyatı idarə etmək institutu kimi qiymətləndirən sosializm baxışları arasındakı qurşıdurmanı azaltmış oldu.

Avropa qitəsində və Rusiya imperiyasında sosial və iqtisadi hüquq ideyaları 19-cu əsrin sonunda, kütləvi fəhlə hərəkatları dövründə geniş yayılmağa başladı və artıq Birinci Dünya müharibəsi başlanan zaman siyasi və sosial hüquqların qovuşması (sosial-demokratiya) burada ən populyar bir ideyaya çevrildi.

Həm Azərbaycan Cumhuriyyəti dövründə mətbuat, vicdan azadlığı, yığıncaq keçirmək, yer dəyişmək azadlığı, qanun qarşısında bütün vətəndaşların bərabərliyi, eləcə də, 8 saatlıq iş günü, həmkarlar təşkilatının sərbəst şəkildə fəaliyyət göstərməsi, torpağın kəndliyə verilməsi, pulsuz və icbari təhsil Azərbaycanın inkişafının ayrılmaz amillərindən oldu.

Siyasi azadlıq və dövlətin siyasi hakimiyyətinin məhdudlaşdırılması ənənələrinin dərin kök atdığı ölkələrdə isə həmin ideyaların qovuşması asan olmadı, çünki bu ölkələrdə iqtisadiyyata müdaxilə edən dövlətə cəmiyyətdə düşmən münasibət var idi. Klassik liberalizmin nümayəndələri insanın dövlət tərəfindən dolandırılması və işlə təmin olunması ideyası ilə heç cür razılaşa bilimirdilər. Lakin 30-cu illərdən etibarən özünü kəskin şəkildə göstərən iqtisadi böhranlar, kütləvi həmkarlar hərəkatı, heç də bunlardan az həlledici olmayan bir tarixi fakt - SSRİ-nin mövcudluğu (bu dövlətdə hər bir adamın minimum yaşayış tərzinə təminat var idi) inkişaf etmiş kapitalist ölkələrində sosial təminatın və dövlətin iqtisadiyyata müdaxiləsinin xeyli artmasına gətirib çıxardı.

ABŞ prezidenti F.D.Ruzvelt özünün "Dörd cür azadlıq"dan bəhs edən məşhur çıxışında (1941) Amerika ənənələrinə zidd olan belə bir fıkir söylədi: "Ehtiyac içində olan adam azad ola bilməz". F.D.Ruzveltin burada bəşəriyyətin inkişafı naminə irəli sürdüyü "ehtiyacdan xilas olma azadlığı" təhlükəsizlik və demokratiya üçün "fikir azadlığı", "vicdan azadlığı" və "qorxudan xilasolma azadlığı" qədər əhəmiyyətli idi. Beləliklə, demokratik ölkələrin parlamentləri "tam məşğulluq" ideyasından həmişə yan keçsələr də, insan hüququna baxışlar getgedə genişlənməyə başladı".

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## Ayaqlar üçün vanna

Ayaqları suda saxlamaq öskürəyin itməsinə, orqanizmdə yığılan toksinlərin qısa müddətdə xaric edilməsinə, siqaretin bədəndə topladığı zəhəri bir qədər azaltmağa imkan verir. Bəzən soyuqdəymə ilə əlaqədar yaranan öskürək və ciyərlərdə toplanan bəlğəm çox narahatlıq yaradır, eyni zamanda kimyəvi maddələrin yüksək təsirinə məruz qalmağa səbəb olur.



AZƏRTAC xəbər verir ki, heç bir dərmandan istifadə etmədən həmin problemlərin sadə üsulla həlli yolu var. Ayaqları yandırmayacaq dərəcədə isti suda saxlamaq bu sahədə çox faydalı təsirə malikdir. Suda saxlama müddəti 25-30 dəqiqə arasında olmalıdır. Su ılıqlaşanda ayaqları vannadan çıxarıb yenidən isti su əlavə etmək lazımdır. Həmin üsulun bir neçə gün fasilə ilə təkrar edilməsi yolu ilə xroniki öskürək, bəlğəm və orqanizmdə siqaretin yaratdığı toksinlərdən xilas olmaq mümkündür.

## Yuxu rejiminə əməl etmək xoşbəxtliyin əsas səbəblərindən biridir

Yuxu gün ərzindəki bütün fəaliyyətin təməli hesab olunur. AZƏRTAC xəbər verir ki, narahatlıq və gərginliyin səbəbini çox vaxt yuxu saatının azlığı ilə əlaqələndirirlər. Alimlərin apardığı yeni araşdırma nəticəsində məlum olub ki, gün ərzində 7 saat 6 dəqiqə yatmaq xoşbəxt olmağın əsas şərtlərindən biridir. Onların apardığı təcrübədə minlərlə könüllü iştirak edib. Təcrübə nəticəsində müəyyən olunub ki, qismən xoşbəxt olanlar isə 6 saat 54 dəqiqə yatırlar. Aparılan araşdırmalara görə, 6 saat 48 dəqiqədən az yuxu yatmaq narazılığın artması deməkdir. Həmin yuxu rejiminə malik olanlar münasibətlərindən narazı və daima narahatdırlar. Mütəxəssislər müəyyən ediblər ki, yuxu saatı azaldıqca xoşbəxtliyin səviyyəsi də aşağı düşür. Dərin yuxuya getməyin sadə yolları da müəyyən edilib. Təcrübə iştirakçısı olan könüllülərdən yatmazdan əvvəl duş qəbul edən və meditasiya dalanların yuxusunun daha keyfiyyətli olduğu aşkarlanıb. Video oyunlar oynamağa üstünlük verilməsi isə yuxusuzluq yaradır.



## Əliyar Ağayev Çempionlar Liqasına təyinat aldı

FİFA referisi Əliyar Ağayev Çempionlar Liqasının oyununa təyinat alıb. AFFA-nın rəsmi saytında yer alan məlumatıa görə, o, II təsnifat mərhələsi çərçivəsində iyulun 18-də və ya 19-da keçiriləcək "Rusenborq" (Norveç) - "Dundalk" (İrlandiya) oyununu idarə edəcək. Norveçdəki görüşdə ona Zeynal Zeynalov və Rza Məmmədov kömək edəcəklər. Qarşılaşmanın dördüncü hakimi funksiyasını isə Orxan Məmmədov yerinə yetirəcək. Qeyd edək ki, Əliyar Ağayev Avropa Liqasının I təsnifat mərhələsi çərçivəsində iyunun 29-da keçiriləcək "Kayrat" (Qazaxıstan) - "Atlants" (Litva) matçının dördüncü hakimi olacaq.

## Muarem Muarem "Adanaspor"la razılığa gəlib

"Qarabağ"ın sabiq futbolçusu Muarem Muaremin yeni klubu müəyyənləşmək üzrədir. Türkiyənin "Ajansspor" saytının yaydığı xəbərə görə, makedoniyalı yarımmüdafiəçi Türkiyə birinci divizion təmsilçisi "Adanaspor"la razılığa gəlib. Qeyd edək ki, M.Muarem bundan əvvəl Türkiyənin "Orduspor" və "Əskişehirspor" klublarında oynayıb. Xatırladaq ki, "Qarabağ"ın sabiq hücumçusu Reynaldo da "Adanspor"da çıxış edir.

**ELAN**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat müəllimliyi ixtisası üzrə I kurs tələbəsi İsmayılbəyli Əli Bəxtiyar oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Bakıda Formula-1 yarışlarının sıralanma turu başa çatıb



Bakıda Formula-1 yarışlarının sıralanma turu başa çatıb. SİA-nın məlumatına görə, Formula -1 Azərbaycan Qran-Prisi çərçivəsində keçirilən yarışların bu mərhələsində ilk yerə "PREMA Racing" komandanın pilotu Şarl Lekler çıxıb. O, 1:52.129 dəqiqə nəticə göstərib. İkinci yerdə "ART Grand Prix" komandasının pilotu Nobuharu Matsuşita (1:52.697), üçüncü yerdə "DAMS" komandasının pilotu Nikolas Latifi (1:52.865) qərarlaşıb. Qeyd edək ki, Formula -1 yarışlarının sərbəst yürüşlərində "Pertamina Arden" komandasının niderlandlı pilotu Nik de Vris ən yaxşı nəticəni əldə edib. O, 1:54.187 dəqiqə göstərici ilə birinci yeri tutub. Ən yaxşı ikinci nəticəni "MP Motorsport" komandasının britaniyalı pilotu Cordan Kinq (1:54.308), üçüncü nəticəni "Russian Time" komandasının italyan pilotu Luka Gyotto (1:54.734) göstərib.

Xatırladaq ki, Bakıda Formula- 1 yarışlarında 10 komanda birincilik uğrunda mübarizə aparır. Hər komandanı 2 pilot təmsil edir. Bu həftəsonu yarışda bir sürücü dəyişikliyi olub. Belə ki, Sergey Sirotkin 7 nömrəli bolidin sürücüsü Aleksandr Albonu əvəzləyib. Oliver Rouland 3-cü mərhələdən sonra Şarl Lekler ilə arasında olan xal fərqini 26-dan 3-ə endirib. Ötən il Bakı şəhər halqasında (6 km) qeydə alınan ən sürətli dövrə A.Giovinazziyə məxsus olub - 1:51.752 (193,381 km/saat). Monte Karloda baş tutan 3-cü mərhələdən sonra "PREMA Racing" komandası komandalararası çempionatda birinciliyi əldən verərək 4-cü yerə düşüb. "DAMS" komandası hələlik ən çox podyum sayına sahibdir. Bu komanda 5 dəfə fəxri kürsüyə çıxıb. "Russian Time" 4, "PREMA Racing" 3, "ART Grand Prix" komandası isə 2 dəfə birinci olub. Formula-1 üzrə ilk 6 yarışın qalibləri Şarl Lekler, Oliver Rouland, Artem Markelov, Nobuharu Matsuşita və Nik Vriesdir. O.Rouland 6 yarış ərzində 4 dəfə podyuma çıxıb. Çempionatın lideri Ş.Lekler və O.Rouland arasında 3 xal fərq var. Komandalararası çempionatda "Russian Time" və "DAMS" komandaları arasında 14 xal fərq mövcuddur.

## Formula 1-in idman direktoru: "Bakı Şəhər Halqası möhtəşəmdir"

"Formula1-in tarixində biznesin inkişafı ilə bağlı komanda fəaliyyət göstərməyib. Biz yeni qrup yaratmışıq. Bu, yarışın gələcəkdə iqtisadi cəhətdən daha yaxşı olması üçün fəaliyyət göstərəcək. Yeni yaradılan ekspertlər qrupu bununla məşğuldur". SİA-nın məlumatına görə, bunu Formula 1-in idman direktoru Ross Braun Bakıda keçirdiyi mətbuat konfransında deyib. Yarışın yeni təşkilatçıları Formula 1-də yeniliklər etməyi planlaşdırırlar. R.Braunun sözlərinə görə, komandalar arasında böyük büdcə fərqini aradan qaldırmağı və tamaşaçı marağını daha da artırmağı hədəfləyiblər: "Ekspertlər qrupu ilə birgə komandalar arasında fərqi aradan qaldırmağı, yarışın formatında dəyişikliklər etməyi nəzərdə tuturuq. Bunlar hamısı tamaşaçıların marağına hesablanıb. Biz qısa zamanda böyük nailiyyətlərə imza ata bilmişik. Çalışırıq ki, yarışı daha az xərclə keçirmək mümkün olsun. Bunun üzərində işləyirik. Bu, araşdırmalar tələb edir. Gəlirimizin böyük bir hissəsini isə büdcəsi az olan komandaların inkişafına yönəldəcəyik. Belə olan halda rəqabət və baxımlılıq artacaq. Komandaların sayını da 12-13-ə qaldırmaq istəyirik".



İdman direktoru yeni reqlamentin müəyyən dəyişikliklərə öz təsirini göstərdiyini də deyib: "Ötmələr azalıb ki, bu da aerodinamikanın zəifləməsi ilə nəticələnib. Bununla bağlı araşdırmalar aparılır və növbəti reqlament dəyişikliyi zamanı bütün bunlar nəzərə alınacaq. Bolidlərin dizaynı xüsusi texniki göstəricilərə görə hazırlanır. Biz 2 bolidin hərəkəti zamanı hava axınının maneçilik törətməsinin qarşısını almaq üçün yeni dizaynların hazırlanması istiqamətində də yeniliklər edəcəyik. Bu hazırkı məqam rəqabətədavamlığı azaldır. 2021-ci ilədək əsas hədəflərdən biri bolidlərin motorunun yenilənməsi və gücləndirilməsidir. Bunadək digər ciddi dəyişikliklər də olacaq. Bu, maşının çəkisi və digər məsələlərdir ki, o da 2019-cu ilədək həll ediləcək". R.Braun Azərbaycan Qran-Prisi haqda da fikirlərini açıqlayıb. Onun sözlərinə görə, apreldə Bakıda keçiriləcək 3-cü yarışda bəzi texniki dəyişikliklər ediləcək: "İlk dəfədir ki, Bakıya gəlirəm və Bakı Şəhər Halqası ilə də birinci dəfədir tanış oluram. Məni burda yaradılmış şərait valeh etdi. Bakı çox gözəl şəhərdir. Trekə gəlincə, Bakı Şəhər Halqası möhtəşəmdir. Yarışın uğurla və gözəl təşkil olunacağına ümid edirəm. Dünya çempionatı olduğu üçün rəqabətin hər bir ölkədə aparılması vacibdir".

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**